## ADP hakimiyyəti Nepal hadisələrindən “dərs çıxarmağa” çağırdı


# Hürriyyət

SİZİN ÜÇÜN QƏZET

№33 (3372) 16 Sentyabr / 2025-ci il | Həftədə 1 dəfə çıxır | Qiymәti: 60 qəpik


**ANA XƏBƏR**



### Ukrayna Rusiyanın “ürəyinə” zərbələr endirir

# Farhad Əhmədovun 20 milyonluq mülkü əlindən alınır

Bu məsələdə də Ramiz Mehdiyevin adı hallanır...



2

**GÜNÜN NƏBZİ**

**Siyasət**

### İslam ölkələrinin yeni güc mərkəzi qurulur



İtirən tərəf ABŞ və İsrail, qazanan tərəf Türkiyədir

5

**Gündəm**

### Sabiq icra başçısının oğlu sahibkarın obyektini mənimsəyib

Əbdürrəhim Cuvarlı: “Ailəmə məxsus obyekti Xəqani Əhmədov necə özəlləşdirib?!”

6

**Şikayət**

### Özünün xəbəri olmadan adına şirkət açdılar, külli miqdarda vergi borcu yığıldı...

İnəyini satıb, borcunun yarısını ödəyən Gədəbəy sakinindən Baş prokurora müraciət

10

**Şikayət**

### Ağdaş sakini oğlunun ölümünə səbəb olan şəxsin cəzalandırılmasını tələb edir

Yusif Əzizovdan hakim Günay Aşurovanın məsuliyyətə cəlb olunması ilə bağlı müraciət

10

**Cəmiyyət**

### Xəbəri olmadan 4 ildir işə götürülüb, maaşını başqası alır

Bərdə sakini heç bir işdə çalışmadığını kimsəyə sübut edə bilmir...

4

**Xəbər**

### Ramin İsayevlə bağlı şok faktlar üzə çıxdı



54 milyonun talanmasında qohumları da iştirakçı olub

2

**Xəbər**

### "Vüsal 300" kimi tanınan iş adamı həbs edildi



Ona qarşı əlavə ittiham irəli sürülüb

2

**Toplum**

### “İllərdir evimdə məskunlaşan qaçqınlar məni və ailəmi təhdid edir”

Sumqayıt sakini Vəkil Verdiyev: “Deyirlər ki, mərkəzi qoyub, dağın dibinə getməyəcəyik, get sən Qubadlıda yaşa”

Sumqayıt şəhər sakini Verdiyev Vəkil Rza oğlu tərəfindən “Hürriyyət”in redaksiyasına şikayət məktubu daxil olub. Şikayətçi qəzetimiz vasitəsilə Prezident İlham Əliyevə, Birinci vitse-prezident Mehriban Əliyevaya, İnsan Hüquqları üzrə Müvəkkil (Ombudsman) Səbinə Əliyeva, Daxili İşlər naziri Vilayət Eyvazova və Baş prokuror Kamran Əliyevə müraciət edir:

7

**Fakt**

### Müdafiə Nazirliyinin əməkdaşı damarlarını niyə doğrayıb?

Yaxud qurumdakı yeyinti faktlarını üzə çıxaran Əhməd Talıbovu kimin göstərişi ilə “dəlixana”ya salmaq istədilər...

Bakı şəhərində yaşayan Talıbov Əhməd Mahmud oğlu tərəfindən “Hürriyyət”İn redaksiyasına şikayət məktubu daxil olub. Vaxtilə Müdafiə Nazirliyində çalışdığını bildirən şikayətçi bəzi qanunsuzluqlarla bağlı a açıqlama verib. Onun məktubunu oxucularımıza təqdim edirik: “Diqqətinizə çatdırım ki, mən 1990-cı ildə Azərbaycan Respublikası Müdafiə Nazirliyinin Mərkəzi Ərzaq Anbarında işə qəbul olunmuşam və 30 il orada sürücü işləmişəm.

3

SİZİN ÜÇÜN QƏZET

# Hürriyyət

№33 (3372) 16 Sentyabr / 2025-ci il Həftədə 1 dəfə çıxır Qiymәti: 60 qəpik

# “Vətənim mənə xəyanət etdi”



## Puqaçovanın müsahibəsi Rusiyada aranı qarışdırdı

**“Çoxdan demişdim ki, çox sevdiyim vətənimi yalnız bir halda tərk edə bilərəm - vətənim mənə xəyanət etsə. Və o, mənə xəyanət etdi. Amma milyonlarla pərəstişkarım mənə xəyanət etmir”.**

Bunu Rusiyanın və keçmiş SSRİ-nin ən populyar qadın müğənnisi olmuş, əfsanəvi Alla Puqaçova son müsahibəsində deyib. Puqaçova 2017-ci ildən bəri ilk dəfə jurnalist Yekaterina Qordeyevaya müsahibə verib. 3 saatdan çox davam edən müsahibəni cəmi 3 gündə artıq 15 milyon nəfər izləyib. Müğənni Rusiyanı tərk etməsindən, rus sənətçilərindən, yaxınlarından, siyasətçilərdən, Rusiya hökumətinə münasibətindən və müharibə əleyhinə olmasından danışıb.

Müğənni deyib ki, hakimiyyətin qarşısında “baş əymədiyi” üçün və müharibə də daxil olmaqla, Rusiyada baş verənlərin əleyhinə olduğu üçün onu və ailəsini təqib və təhqir ediblər. Puqaçova qeyd edib ki, o, susub Rusiyada qala bilməzdi: ”Xeyr, susmazdım, getməyim daha yaxşı olardı. Təbii ki, bunun necə bitəcəyini bilirdim. Maksim (Puqaçovanın əri Maksim Qalkin-red.) də susmazdı. Çünki Katya, vicdan deyə bir şey var. Vicdan isə şan-şöhrətdən dəyərlidir, dəbdəbədən qiymətlidir, hər şeydən qiymətlidirg Sonra da adamın getmək haqqı var ki, təhqir olunmasın. Əgər səni heç bir səbəb olmadan təhqir edirlərsə - düzünü desəm, belə təhqirlərdən şoka düşdüm. Amma çox da təəccüblənmədim, çünki bunun olacağını bilirdim”.

Müğənni 2022-ci ildə Rusiyanı necə tərk etməsindən danışıb. O, 2022-ci il fevral ayında müalicə üçün İsrailə getməyi planlaşdırdığını deyib. Həmin vaxt artıq Maksim Qalkin müharibənin əleyhinə olduğunu bəyan etmişdi. Bu zaman onu Prezident Administrasiyasına çağırıblar və onun adminstrasiya başçısının birinci müavini Sergey Kiriyenko ilə görüşü təşkil olunub: ”Kiriyenko danışmaq istəyirdi. Mən Seryojanı tanıyırdım, ona həmişə yaxşı münasibətim olub. Fikirləşdim ki, yaxşı, gedim danışım. Bəlkə nəsə təklif edər. O, mənim nədən narazı olduğumu soruşdu, mən də ailəmizə qarşı özbaşınalıqlardan narazılığımı bildirdim... O dedi ki, narahatçılıq üçün əsas yoxdur və hər şey normaldır. Ancaq hiss edirdim ki, nəsə qaydasında deyilg”

Puqaçovanın sözlərinə görə, Sergey Kiriyenko ilə görüşdən cəmi iki gün sonra Qalkin “xarici agent” elan olunub. Lakin onun sözlərinə görə, Rusiyanı tərk etmək qərarı övladlarına məktəbdə “casusların uşaqları” deyilməsindən sonra qəbul olunub: ”Çantalarımızı yığdıq, yanımızda götürə biləcəyimiz 30 min dollarımız var idi. Beləcə İsrailə getdik”.

Puqaçova müsahibəsində Çeçenistanın birinci Prezidenti Cövhər Dudayev haqqında xoş sözlər deyib və onun həyat yoldaşından heç cür ona kömək edə bilmədiyinə görə üzr istəyib.

Puqaçova həmçinin, Tümendə məşhur həmyerlimiz Fərman Salmanovla görüşündən, ona heyran olduğundan və onun müğənniyə verdiyi dəstəkdən danışıb.

Müğənni müharibənin əleyhinə olduğunu bir daha təkrarlayıb və rusiyalılara çağırış edib: “Uşaqlar, həqiqəti söyləməyi öyrənin. Yaxşılığa, xeyirxahlığa, gözəlliyə can atmağı öyrənin. Heç nəyi dağıtmağa ehtiyac yoxdur, biz qurmalıyıq, yaratmalıyıq. Biz sülh üçün dua etməliyik, müharibədən zövq almamalıyıq”.

Əfsanəvi müğənninin bu müsahibəsi Kremli, onun təbliğatçılarını və çoxdan qudurmuş “Z-bloqerləri” çox narahat edib. Efirlərdə və sosial şəbəkələrdə onların Puqaçovaya yağdırdıqları təhqir və təhdidlərin sayı-hesabı yoxdur. Lakin müğənnini dəstəkləyənlərin sayı qat-qat daha çoxdur.

Kreml Puqaçovaya Rusiya Xarici İşlər Nazirliyinin rəsmi nümayəndəsi Mariya Zaxarovanın dili ilə cavab verib. O isə öz səviyyəsinə uyğun ifadələr işlətməklə, heç bir arqument gətirmədən Puqaçovanı ikiüzlülükdə günahlandırıb.

Qeyd edək ki, Ukraynada müharibə başlayandan sonra Rusiyanı tərk edən Puqaçova və Maksim Qalkin İsrailə gediblər. İndi onlar dünyanın müxtəlif ölkələrinə səfərlər edirlər. Onların İsrail pasportu, həmçinin Kipr vətəndaşlığı var.

Əyləncə səhifəsi



# Bir ildir itkin düşmüşdü, süni intellekt saniyələr ərzində tapdı

**İtaliyada xilasedicilər təxminən bir il əvvəl itkin düşən 64 yaşlı həkim Nikola İvaldonun meyitini süni intellektin dəstəyi ilə aşkar ediblər. Bu barədə xarici media xəbər verir.**

Milli Alp və Speleoloji Xilasetmə Korpusu (CNSAS) dronlarla çəkilmiş 183 hektarlıq dağlıq ərazini əhatə edən 2600 şəkili süni intellekt proqramına təqdim edib. Proqram şəkillərdəki fərqli rəngli pikselləri təhlil edərək bir neçə “şübhəli nöqtə”ni müəyyənləşdirib.

Dron pilotu Saverio İzolanın sözlərinə görə, həmin yerlər ertəsi gün yoxlanılıb: “Səhər saat 4-də yola çıxdıq, çünki ən ucqar nöqtəyə çatmaq lazım idi. Süni intellektin göstərdiyi qırmızı piksellərdən birinin həqiqətən də itkin düşənin dəbilqəsi olduğu təsdiqləndi.”

Bundan sonra xilasedicilər helikopter çağıraraq meyiti ərazidən çıxarıblar.



# Məşhur aktoyor intihara cəhd etdi

**“Geniş ailə” serialının məşhur aktyoru Ufuk Özkan intihara cəhdi edib. Lent.az xarici mediaya istinadla xəbər verir ki, yaxınlarının xəbərdarlığı və müdaxiləsi ilə xəstəxanaya çatdırılan Özkana dərhal müdaxilə edilib.**

Həkimlər aktyorun həyati təhlükəsinin olmadığını və vəziyyətinin yaxşıya doğru getdiyini açıqlayıblar.

Qeyd edək ki, 48 yaşlı aktyor son illərdə qaraciyər çatışmazlığı diaqnozu ilə müalicə alır.

O, həmçinin keçmiş həyat yoldaşı ilə yaşadığı aliment mübahisəsi zamanı “Kirayəmi belə çətinliklə ödəyirəm” sözləri ilə maddi sıxıntılar içində olduğunu açıqlamışdı.

**Təsisçi:**
Sərdar Cəlaloğlu

**Baş redaktor:**
Vüqar Məmmədov
Tel: 070 333 22 85
012 496 98 93
E-mail: vuqar-mt@mail.ru

**Dizayner:**
Seymur Həsənov

“Hürriyyət” qəzetinin internet unvanı:
**Hurriyyet.az**
E-mail: hurriyyet@mail.ru
**Tiraj: 2500**

**Redaksiyanın ünvanı:**
AZ 1008, Bakı, akademik Ələşrəf Əlizadə küçəsi, 31
Telefonlar: 496-10-72; 496-08-35

Lisenziyanın qeydiyyat nömrəsi: V 165
Müəlliflərin mövqeyi ilə redaksiyanın mövqeyi üst-üstə düşməyə bilər.
Əlyazmalar geri qaytarılmır.
Redaksiyanın kompüter mərkəzində yığılıb səhifələnir və “Futbol+ servis” mətbəəsində çap edilib.

Bu işarə altında dərc olunan yazılar reklam xarakterlidir.

Qəzet 1991-ci ildən çıxır.


Aslan Heydərov
hakim

# Naxçıvandakı hakimlərdən ibrətamiz davranış...

**Naxçıvan şəhər Məhkəməsinin hakimi Aslan Heydərov universitet müəllimi Aysel Quliyevaya qarşı sifarişli işi icraata götürməkdən imtina edib. Gununsesi.info xatırladır ki, ötən həftədə də məhkəmənin digər hakimi Gülsüm Əliyeva həmin işə baxmaqdan imtina etmişdi.**

Söhbət NDU rəhbərliyinin müəllim Aysel Quliyevanı demədiyi sözə görə məhkəməyə verməsindən gedir. Hakim Aslan Heydərov da məhz bu məqamı əsas gətirərək, işi icraata götürməkdən imtina edib. O, qərarını bu cür əsaslandırıb:

Gg şikayətçinin təhqir hesab etdiyi "Gündəlik Naxçıvan" səhifəsindəki yazıların məhz şikayət olunan şəxs (red.: Aysel Quliyeva) tərəfindən yazılmasını təsdiq edən sübutlar şikayətə əlavə edilməmişdir."

İcraata götürülməyən bu absurd şikayəti tərtib edən isə şikayətçinin müdafiəçisi, Naxçıvan Vəkillər Kollegiyasının sədri Vüsal Həsənovdur. "Gündəlik Naxçıvan" yazır ki, p, Naxçıvanda sifarişli işləri müdafiə edən vəkil kimi tanınır.

# "Vüsal 300" kimi tanınan iş adamı həbs edildi

## Ona qarşı əlavə ittiham irəli sürülüb

**"Vüsal 300" kimi tanınan iş adamı Abbasov Vüsal Şirvan oğlu barəsində əlavə ittiham verilib.**

Hurriyyet.az xəbər verir ki, Vüsal Abbasova Cinayət Məcəlləsinin 192.3.2-ci (qanunsuz sahibkarlıq, xüsusi külli miqdarda) maddəsi ilə yeni ittiham irəli sürülüb.

Bundan qabaq isə V. Abbasov Cinayət Məcəlləsinin 308-ci (Vəzifə səlahiyyətlərindən sui-istifadə) maddəsi ittiham olunurdu.

Xətai rayon Prokurorluğunun təqdimatı əsasında Vüsal Abbasov barəsində 3 ay müddətinə həbs qətimkan tədbirinin seçilməsi ilə bağlı vəsatət Xətai rayon Məhkəməsinə daxil olub.

Hakim vəsatət və təqdimatı təmin edib. Qərara əsasən Vüsal Abbasov barəsində 3 ay müddətinə həbs qətimkan tədbiri seçilib.

Qeyd edək ki, V.Abbasov bir neçə nəfərlə əlbir olaraq qanunsuz lizinq fəaliyyəti ilə məşğul olmaqda ittiham olunur.

Belə ki, Vüsal Abbasov vətəndaşlara məxsus avtomobilləri və digər əmlakları girov saxlamaqla qanunamüvafiq olmayan faiz dərəcələri ilə lizinqə salmaqda təqsirləndirilir.

Sosial şəbəkələrdə yayılan görüntülərdə "Vüsal 300"ə məxsus ofislər, avtomobil qarajı üzərinə məhkəmə tərəfindən həbs qoyulduğu və Xətai rayon Prokurorluğu tərəfindən möhürləndiyi görünür.

Onu da qeyd edək ki, "Vüsal 300" Bakıda ən bahalı maşınların icarədarı kimi tanınır. Bir çox tanınmış müğənnilərin avtomobilləri məhz ona məxsusdur.

# Farhad Əhmədovun 20 milyonluq mülkü əlindən alınır

## Bu məsələdə də Ramiz Mehdiyevin adı hallanır...

**Azərbaycanda milyonlarla manatlıq daşınmaz əmlak uğrunda gedən hüquqi çəkişmədə qalmaqallı məqamlar ortaya çıxıb. Haqqın.az saytı yazır ki, rusiyalı milyarder Fərhad Əhmədovun sifarişi ilə həyata keçirilən tikinti layihəsi ətrafında yaranan mübahisə artıq siyasi dairələrin də diqqətini çəkib.**

Fərhad Əhmədova məxsus "Baku Caspian Real İsteyts Limited" (BKRIL) şirkəti 2020-ci ildə "Armadil Group" MMC ilə müqavilə bağlayaraq, Bilgəh qəsəbəsindəki onun şəxsi rezidensiyasında Avropa istehsalı olan materiallarla dam örtüyü və İtaliya istehsalı olan sürüşən terrasın quraşdırılmasını sifariş etmişdi. Lakin şirkətin faktiki rəhbəri Fəxrəddin Bağırov layihəni keyfiyyətsiz yerinə yetirməklə, ciddi narazılığa səbəb olub.



### 4 milyonluq zərər iddiası

Əhmədovun sifarişi ilə aparılan ekspertiza nəticəsində məlum olub ki, "Armadil Group" öz öhdəliklərini yerinə yetirməyib və nəticədə BKRIL-ə 4 milyon manatdan çox zərər dəyib. Bakı Kommersiya Məhkəməsi iddianı əsaslı sayaraq, "Armadil Group"un BKRIL-ə 862.443 ABŞ dolları məbləğində təzminat ödəməsinə qərar verib. Lakin daha sonra Bakı Apellyasiya Məhkəməsi qərarı ləğv edərək, əks iddianı təmin edib və "Armadil Group"un xeyrinə 2.913.080 ABŞ dolları məbləğində qərar çıxarıb. Ali Məhkəmə də bu qərarı qüvvədə saxlayıb.

### İcra prosesində qalmaqal

Qərarın icrası mərhələsində isə mübahisəli hadisələr yaşanıb. Səbail rayon İcra şöbəsi tərəfindən BKRIL-ə məxsus bütün əmlaklara həbs qoyulub. Ən mübahisəli məqam isə, İçərişəhərdə yerləşən tarixi bir binanın dəyərinin süni şəkildə azaldılaraq, "Armadil Group"un rəhbərinə verilməsinə çalışılmasıdır.

### VETO Consulting - kimə xidmət edir?

Mübahisəli qiymətləndirməni aparan "VETO Consulting" MMC-nin adı bu prosesdə tez-tez hallanır. Bildirilir ki, şirkət tarixi binanı real dəyəri olan 20 milyon manatdan çox yox, cəmi 2,5 milyon manata qiymətləndirərək, bu əmlakın müsadirəsinə şərait yaradıb.

Əhmədovun nümayəndələri iddia edirlər ki, "VETO Consulting" şirkəti Prezident Administrasiyasının sabiq rəhbəri Ramiz Mehdiyev ilə əlaqəlidir.

### Siyasi motivlər iddiası

Fərhad Əhmədovun nümayəndələri bu hadisənin artıq təkcə hüquqi müstəvidə deyil, eyni zamanda siyasi motivlərlə müşayiət olunduğunu bildirirlər. Onların sözlərinə görə, məsələ təkcə biznes davası deyil, ölkədəki müəyyən dairələrin şəxsi maraqlarının təmin edilməsi cəhdidirg

Hazırda Əhmədovun şirkəti Səbail rayon İcra Şöbəsinin hərəkətlərindən məhkəməyə şikayət edib. İş məhkəmə baxımındadır.

# Ramin İsayevlə bağlı şok faktlar üzə çıxdı

## 54 milyonun talanmasında qohumları da iştirakçı olub



**54 milyon manat yeyinti ittihamı ilə bugünlərdə 14 il azadlıqdan məhrum edilən "SOCAR-AQŞ" MMC-nin keçmiş baş direktoru Ramin İsayevlə bağlı cinayət işində adı keçən şəxslərin bir çoxu onun yaxınlarıdır.**

Gununsesi.info-nun araşdırması zamanı məlum olub ki, bu sırada Xətai Rayon İcra Hakimiyyəti başçısının müavini olmuş Rafiq İsayev, bacısı övladlarından "SOCAR-AQŞ" MMC-də Logistika şöbəsinə rəhbərlik etmiş Anar İsmayılov, Satınalmalar şöbəsinin keçmiş müdiri Ramil Nəbiyev, onun qardaşı Cəbrayıl Nəbiyev və başqa qohumların adları var.

Ramin İsayev 14 il azadlıqdan məhrum edilməklə yanaşı, onun yaxınlarının adına, dəyəri milyonlarla olan xeyli daşınmaz əmlak və nağd pul da müsadirə edildi. Gununsesi.info-nin əldə etdiyi məlumata görə, 2024-cü ilin yayında Ramin İsayev tutulandan sonra onun yaxınlarının yaşadığı evlərdə də axtarış aparılıb və təkcə elə bacısı oğlu Cəbrayıl Nəbiyevin mənzilindən 5 milyon 780 min dollar və 200 mindən çox manat tapılıb. Bundan başqa, daha 2 milyon 500 min dollar və 217 min manat pulu könüllü şəkildə istintaqa təqdim edib.

Ümumiyyətlə, Ramin İsayevin işi üzrə müsadirə olunan əmlak və pulun böyük bir hissəsi rəsmi şəkildə Cəbrayıl Nəbiyevə məxsusdur.

Cəbrayıl Nəbiyev məhkəmədə dindirilərkən evindən tapılan pulların dayısına məxsusluğunu inkar edib. O, iddia edib ki, son vaxtlara qədər heç dayısı ilə isti münasibətləri yox idi, tez-tez görüşmürdülər. Lakin məhkəmə onun dediklərini inandırıcı qəbul etməyib.

2009-2020-ci illərdə "SOCAR-AQŞ" MMC-nin baş direktoru vəzifəsində çalışmış Ramin İsayev 2023-cü ilin iyulunda həbs olunub.

O, ittihamları qəbul etmir.

# Müdafiə Nazirliyinin əməkdaşı damarlarını niyə doğrayıb?

**Bakı şəhərində yaşayan Talıbov Əhməd Mahmud oğlu tərəfindən "Hürriyyət"in redaksiyasına şikayət məktubu daxil olub. Vaxtilə Müdafiə Nazirliyində çalışdığını bildirən şikayətçi bəzi qanunsuzluqlarla bağlı açıqlama verib. Onun məktubunu oxucularımıza təqdim edirik:**



## Yaxud qurumdakı yeyinti faktlarını üzə çıxaran Əhməd Talıbovu kimin göstərişi ilə "dəlixana"ya salmaq istədilər...

"Diqqətinizə çatdırım ki, mən 1990-cı ildə Azərbaycan Respublikası Müdafiə Nazirliyinin Mərkəzi Ərzaq Anbarında işə qəbul olunmuşam və 30 il orada sürücü işləmişəm.

2012-ci ilin fevral ayında mayor vəzifəsində olan Yəhyayev Eldəniz anbara rəis təyin edildikdən sonra orada rüşvətxorluq və korrupsiya faktları geniş yayıldı. Bu barədə hərbi prokuror Xanlar Vəliyevə şikayət etdiyimə görə, rəhbərlik tərəfindən mənə təzyiqlər edildi. Mən bu təzyiqlərə dözə bilmədiyim üçün 2020-ci ilin fevral ayının 6-da iş yerində vena damarlarımı kəsərək, intihara cəhd etmişəm.

Həmin dövrdə artıq ərzaq xidmətinin rəisi olan Eldəniz Yəhyayevin göndərdiyi təhqiqatçı Həsənov Saday, rəis Kərimov Camal və saxta diplomlu hüquq məsləhətçisi Pənahov Azərlə əlbir olaraq, məni Maşdağada yerləşən "dəlixana"ya salmaq istədilər. Lakin orada daimi fəaliyyət göstərən həkim komissiyası məni müayinə etdikdən sonra buna razı olmadı.

Bundan sonra Hüquq İdarəsinin rəisi Əliyev Elçin də onlara qoşuldu və kollektivi üzümə durdurub, məni şərləyərək işdən qovdular.

Eldəniz Yəhyayev Kərimov Camalı rəis təyin edərkən onun yanında mənə demişdi ki, "Camal mənim öz adamımdır, onu bura mən gətirmişəm və hər zaman onun arxasında duracağam. Əgər onun dönündə şikayət etsən, artıq işə şəxsən mən özüm qarışacağam və bunun nəticəsi sənin üçün çox pis olacaq".

Zavodun müəyyən etdiyi normaya əsasən, mənim idarə etdiyim avtomobil 100 km məsafəyə 28 litr yanacaq sərf edir. Lakin hər dəfə Gəncə şəhərinə gedib-qayıtmaq üçün faktiki sərf edilən 200 litr əvəzinə, 500 litr yanacaq silinirdi. Bu barədə Xanlar Vəliyevə etdiyim şikayət araşdırılarkən müəyyən olunmuşdur ki, bütün hərbi texnikaların sərf etdiyi yanacaq müdafiə nazirinin qərarına əsasən silinir və zavodun müəyyən etdiyi norma 21 litr artırılaraq 49 litrə çatdırılmışdır.

Nəzərə alsaq ki, hər bir avtomobilin illik yürüş norması 25 000 kilometr, bir litr yanacağın qiyməti isə bir manatdır, deməli, təkcə bir avtomobilə bir il ərzində artıq yanacaq silinməsi nəticəsində dövlət büdcəsinə 5 250 manat məbləğində zərər vurulur. Həmin məbləğ isə bir qazinin beş il beş ay ərzində aldığı pensiya məbləğinin cəmindən çoxdur.

Hərbi texnikalar isə yalnız maşınlardan ibarət deyildir və buraya tanklar, BTR-lər, BMP-lər və digər ağır döyüş texnikaları da daxildir. Lakin cinayət əlamətləri aydın görünsə də, Azərbaycan Respublikasının Hərbi Prokurorluğu cinayət işinin başlanılmasının rədd edilməsi haqqında qərar qəbul edərək, xüsusilə ağır cinayəti gizlətmişdir.

Bununla bağlı Dövlət Təhlükəsizliyi Xidmətinə elektron qaydada və şəxsən yazılı ərizə də təqdim etmişəm. Lakin şikayətim araşdırılmadan, birbaşa Ali Məhkəməyə göndərilmişdir. Halbuki, Ali Məhkəmə onları araşdırmaq kimi bir vəzifə daşımır.

Sonra Ombudsman Səbinə Əliyevaya müraciət etdim. Həmin müraciət isə nazirliyin özünə göndərildi. Nazirlikdən isə mənə verilən cavabda göstərilir ki, "sizin müraciətinizə baxılmışdır. Əsaslı dəlillərin qeyd olunmamasını nəzərə alaraq, yenidən müraciət etməyiniz tövsiyyə olunur".

Məktubu oxuyanda adama elə gəlir ki, guya, onların heç nədən xəbərləri yoxdur. Halbuki məktubu imzalayan, həmin idarənin - Arxa Cəbhə İdarəsinin rəisi Abdullayev Vüqar və onun birbaşa rəisi general-mayor Yəhyayev Eldəniz Telman oğlu bu vəzifəyə gəlməzdən əvvəl biri digərinin ardınca Mərkəzi Ərzaq Anbarının rəisi olduqları üçün həmin cinayətin birgə iştirakçılarıdırlar.

Konstitusiya günü olduğunu və Gəncə bölməsinin anbarında yer olmadığını bildiyi halda, Yəhyayev 2014-cü ilin noyabr ayının 12-də məni ezamiyyətə göndərdiyi üçün həmin gün maşında gecələməli oldum. Yatmazdan əvvəl yaxınlıqda yerləşən mülki yeməkxanadan şam yeməyindən çıxarkən "Qazel" markalı bir yük avtomobili məni vurub, hadisə yerindən qaçdı. Zərbə nəticəsində döş qəfəsim tamamilə əzilmiş, qabırğalarım 13 yerdən sınmış və ürəyimi də zədələyərək ağ ciyərlərimə batmışdı.

> Konstitusiya günü olduğunu və Gəncə bölməsinin anbarında yer olmadığını bildiyi halda, Yəhyayev 2014-cü ilin noyabr ayının 12-də məni ezamiyyətə göndərdiyi üçün həmin gün maşında gecələməli oldum. Yatmazdan əvvəl yaxınlıqda yerləşən mülki yeməkxanadan şam yeməyindən çıxarkən "Qazel" markalı bir yük avtomobili məni vurub, hadisə yerindən qaçdı...

Bölmə rəisi mayor Fuad Mehrəliyev öz şəxsi vəsaiti hesabına həkim nəzarəti altında xüsusi tibbi avadanlıqlarla təchiz edilmiş reanimobillə məni təcili olaraq Bakıya - Akademik Mirqasımov adına Respublika Klinik Xəstəxanasına çatdırmışdır. Reanimasiya şöbəsində 8 sutka komada qalmışam və uzun müddət müalicə olunmuşam. Həkimlər bütün səylərini ortaya qoyaraq məni ölməyə qoymadılar. Lakin xəstəxanadan çıxdıqdan sonra Yəhyayev mənə bildirdi ki, sən artıq yararsızsan və daha sürücü işləyə bilməzsən.

Nəhayət, çox çətinliklə mən yenidən öz işimə qayıda bildim. Lakin bölmə rəisi mayor Fuad Mehrəliyev əvvəl vəzifəsindən, sonra isə ərzaq təminatı sahəsindən tamamilə uzaqlaşdırıldı.

2017-ci ildə Yəhyayev Eldənizin göstərişi ilə yaradılmış daxili komissiya normalara yenidən baxdıqdan sonra onun öz doğma əmisi oğlu Elxanın idarə etdiyi avtomoblə bu gün də digər bütün avtomobillərdən artıq yanacaq silinir. Etibarlı mənbələrdən mənə verilən məlumata görə, Yəhyayev orada olanlar haqqında ona vaxtaşırı məlumatlar çatdıran, lakin Qarabağı xəritədə belə göstərə bilməyən Elxana və bir neçə şəxsə saxta "Vətən Müharibəsi Veteranı" vəsiqəsi verdirməsi nəticəsində dövlətə əlavə maddi zərər vurulur.

2025-ci ildə Kərimov Camalı da öz yanına aparıb, Müdafi Nazirliyinin ərzaq xidmətinin rəisi təyin etməklə, Yəhyayev Eldəniz Telman oğlu oranı artıq tamamilə öz əlinə keçirərək, bütün ətrafı yalnız öz adamlarından ibarət şəxsi şirkətinə çevirmişdir və ində artıq öz ürəyi istədiyi kimi hərəkət edir.

Qanunvericiliyin tələbinə əsasən, Konstitusiya quruluşunun əsasları və təhlükəsizliyi əleyhinə olan cinayətlər, terrorçuluq, kibercinayətlər, habelə dövlətin ictimai və iqtisadi sahədə milli təhlükəsizlik maraqlarına və qanunla qorunan mənafelərinə mühüm zərər vuran cinayətlərin vəzifəli şəxs tərəfindən törədildiyi aşkar olunduqda həmin işlər barədə cinayət təqibini DTX həyata keçirməlidir. Lakin həmin normaya riayət olunmur və qeyd olunan sahədə cinayətkarlığa qarşı qətiyyən mübarizə aparılmır. Bunun nəticəsində yaranmış şəraitdən məhz yalnız vəzifəli şəxslər istifadə edərək, dövlət büdcəsini çox rahat şəkildə talan edirlər.

Buradan dövlətimizin başçısı cənab İlham Əliyevə müraciət edərək, qeyd edilən faktlara hüquqi qiymət verilməsi barədə Dövlət Təhlükəsizliyi Xidmətinə xüsusi göstəriş verməsini xahiş edirəm".

**Hazırladı:**
**Jalə FAMİLQIZI**

**Redaksiyadan: Yazıda adları qeyd olunan şəxslərin və qurumların mövqeyini dərc etməyə hazırıq.**




# Xəbəri olmadan 4 ildir işə götürülüb, maaşını başqası alır

## Bərdə sakini heç bir işdə çalışmadığını kimsəyə sübut edə bilmir...




**Bərdə rayonu, Həsənqaya kənd sakini Əliyeva Elmira Tarif qızı tərəfindən ”Hürriyyət”in redaksiyasına şikayət məktubu daxil olub. Şikayətçi bildirir ki, işləmədiyi halda, adına əmək müqaviləsi var:**

“Mən, Əliyeva Elmira Tarif qızı, yazaraq xahiş edirəm ki, səlahiyyətli qurumlar mənə kömək etsin. Bildirim ki, indiyədək getmədiyim, şikayətimi ünvanlamadığım qurum qalmayıb. Heç birindən doğru-düzgün cavab ala bilmirəm.

Bu yaxınlarda öyrənmişəm ki, 2021-ci ildən əmək kitabçam var, yəni rəsmi olaraq işləyirəm. Amma bu günə kimi heç vaxt əmək haqqı almamışam. Hansı idarənin və yaxud da şirkətin işçisi olduğumu da bilmirəm. Hüquq-mühafizə orqanları da bunu öyrənə bilmədilər.

Savadsızlığımdan istifadə edib, kimlərsə adımı işə yazdırıb, haqqıma giriblər. Polisə, məhkəməyə müraciət etmişəm, amma müsbət cavab ala bilməmişəm. Polis məni işə götürən Qəniyev Əlikram Qaraş oğlunu tapa bilmədiyini deyir. Adını çəkdiyim şəxs illərdir mənim yerimə əmək haqqı alırmış.

Çətinliklə 2 uşağımı dolandırıram. Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinə dəfələrlə müraciət etmişəm. ”Məhkəməyə, polisə ver”, - dedilər. Məhkəmə də mənə kömək etmədi. 1-2 prosesdən sonra heç məni məhkəməyə çağırmadılar.

Kasıb adamam, bu işi adımdan sildirə bilsəm, başqa işə girib ünvanlı sosial yardım alardım. Səlahiyyətli qurumlardan xahiş edirəm, mənə bu məsələdə kömək etsinlər. 12-14 yaşlarında azyaşlı uşaqlara baxıram, maddi imkanım yoxdur”.

Məsələ ilə bağlı Dövlət Əmək Müfəttişliyi Xidməti ilə əlaqə saxladıq. Qurumdan bildirdilər ki, “Əmək və Məşğulluq” altsistemində (ƏMAS) vətəndaş Elmira Əliyevanın adında 03 iyun 2021-ci il tarixli əmək müqaviləsi bildirişi mövcuddur: ”Həmin dövrdə qüvvədə olan qanunvericiliyə uyğun olaraq, işəgötürən tərəfindən işçi ilə bağlanılmış əmək müqaviləsində nəzərdə tutulmuş məlumatlar ƏMAS-a daxil edilirdi. Nəticədə, işçinin ƏMAS-a daxil edilmiş bildiriş barədə vaxtında məlumat almaması ehtimalı mövcud idi.

Vətəndaş bu halda əmək müqaviləsinin xitamı və ya ləğvi ilə bağlı müvafiq tədbirlərin görülməsi üçün işəgötürənə, həmçinin qeyd olunan hallarla bağlı məhkəməyə müraciət edə bilər.

Qeyd edək ki, Azərbaycan Respublikasının 28 iyun 2024-cü il tarixli Qanununa və Azərbaycan Respublikası Prezidentinin 12 avqust 2024-cü il tarixli Fərmanına əsasən, əmək müqavilələri artıq yalnız elektron qaydada bağlanır. Bu proses işçi və işəgötürənin qarşılıqlı razılığı əsasında elektron imza vasitələri ilə həyata keçirilir. Müqavilə imzalanarkən portalda müqavilənin şərtləri göstərilir və işçi razı olduğu halda müqaviləni imzalayır, razı olmadığı halda isə imtina edə bilər.

Ümumiyyətlə vətəndaşlar ”e-sosial.az” portalına daxil olaraq rəsmi iş yeri, sosial sığorta və əmək fəaliyyəti barədə məlumatlarla tanış ola bilərlər.

Dövlət Əmək Müfəttişliyi Xidməti vətəndaşlara tövsiyə edir ki, əmək müqavilələrini imzalayan zaman əmək müqaviləsində qeyd olunan bütün məlumatlarla tanış olub daha sonra elektron qaydada imzalasınlar. Eyni zamanda ”e-sosial” portalındakı məlumatları mütəmadi olaraq yoxlasınlar və hər hansı uyğunsuzluq aşkar etdikdə dərhal aidiyyəti qurumlara və ya məhkəmə orqanlarına müraciət etsinlər.

Əlavə olaraq bildiririk ki, Dövlət Əmək Müfəttişliyi Xidmətinin əmək müqaviləsinə Əmək Məcəlləsinin 74-1-1-ci maddəsində nəzərdə tutulan hallardan başqa xitam vermək səlahiyyəti yoxdur”.

**Jalə FAMİLQIZI**

# ADP hakimiyyəti Nepal hadisələrindən “dərs çıxarmağa” çağırdı

## “Ölkədə yeridilən daxili siyasət dövlət başçısının mövcud şərtlərə uyğun yürütdüyü uğurlu xarici siyasətə uyğunlaşdırılmalıdır”

**Dünən ADP İdarə Heyətinin ölkə və beynəlxalaq aləmdə baş verən ictimai-siyasi proseslərə dair növbəti toplantısı keçirilib.**

Partiyanın Mətbuat Xidmətindən “Hürriyyət”ə verilən məlumata əsasən, toplantı iştirakçıları ilk növbədə Nepalda baş verən hadisələr ətrafında müzakirələr aparıb və çevrilişlə nəticələnən bu hadisənin əsas səbəbinin adı çəkilən ölkədə korrupsiyanın dövlət səviyyəsinə qalxması, hakimiyyətin xalqın səsini dinləməməsi, kəskin qütbləşmə fonunda ölkə əhalisinin əksəriyyətinin sosial-iqtisadi vəziyyətinin acınacaqlı hala düşməsi, demokratiyanın, insan hüquq və azadlıqlarının ardıcıl olaraq pozulması faktları və eyni zamanda beynəxalq güclərin bu ölkə üzərində təsir dairəsini gerçəkləşdirmək istəyi ilə bağlı olduğunu diqqətə çatdırıb.

İdarə Heyəti bu cür arzuolunmaz çaxnaşmalardan yayınmaq naminə hakimiyyət yetkililərini ölkədə yeridilən daxili siyasəti, dövlət başçısının mövcud şərtlərə uyğun yürütdüyü uğurlu xarici siyasətə uyğunlaşdırmağa, vətəndaşları dövlətdən narazı salmamağa, insan hüquq və azadlıqlarına dair beynəlxalq öhdəliklərə vicdanla əməl etməyə, siyasi plürallığı təmin etməyə, dövləti içdən sarsıdan korrupsiya və rüşvətxorluğa qarşı ciddi tədbirlər almağa çağırıb.

İdarə Heyəti İsrailin Qətərə hərbi hava hücumunu bu ölkənin suveren hüquqlarının, təhlükəsizliyinin pozulması baxımından yolverilməz olduğunu bildirib və bu cür hərbi insidentlərin beynəlxalq hüquq prinsipləri ilə bir araya sığmadığını, dövlətlərarası münasibətlərin hərbi təcavüz yolu ilə deyil, diplomatik yolla həll edilməsinin tərəfdarı olduğunu bəyan edib.

İdarə Heyəti son günlər Rusiyanın hərbi arealını genişləndirərək Polşa və Ruminiyanın hava məkanına daxil olması, pilotsuz uçuş aparatları ilə hücum etməsi faktını qətiyyətlə pisləyib və Ukraynadan sonra digər Avropa dövlətlərini təhdid edən bu hücumların qarşısının alınması üçün ciddi tədbirlər görülməsinin, adı çəkilən ölkəyə qarşı ağır sanksiyalar tətbiq edilməsinin, Putin Rusiyasının təcavüzkar imperiya ambisiyalarının boğulmasının vaxtı çatdığını qeyd edib.

İdarə Heyəti “Beynəlxalq Böhran Qrupu”nun Ermənistanla Azərbaycan arasında sülh sazişinin bağlanması prosesinin sürətlənməsi üçün sülh müqaviləsinin imzalanmasının, onun ratifikasiyasının isə Ermənistan Konstitusiyasına ediləcək düzəlişlərdən sonraya saxlanılması ilə bağlı irəli sürdüyü təşəbbüs ətrafında fikir mübadiləsi aparıb və bu təklifin Azərbaycan üçün qəbuledilməz olduğunu diqqətə çatdırıb. Eyni zamanda, İdarə Heyəti son vaxtlar Azərbaycanla Ermənistan arasında ikili qaydada keçirilən görüşləri, Ermənistan baş naziri N.Paşinyanın sülhün qaçılmaz olduğu barədə səsləndirdiyi bəyanatları müsbət dəyərləndirib və adı çəkilən ölkənin öz Konstitusiyasında Azərbaycana qarşı ərazi iddialarının aradan qaldırılması istiqamətində qətiyyətli addımlar atacağına ümidvar olduğunu bildirib.

İdarə Heyəti Böyük Britaniya Xarici İşlər Nazirliyinin Azərbaycanla iki dövlət arasında mövcud münasibətlərin statusunun strateji tərəfdaşlıq səviyyəsinə qaldırıldığı ilə bağlı açıqlaması ətrafında müzakirə aparıb və bu strateji yaxınlaşmanı Azərbaycanın istər siyasi, istərsə də təhlükəsizlik baxımından milli və dövlət maraqlarına uyğun olduğunu diqqətə çatdırıb.

İdarə Heyəti sonda cari məsələlərə baxıb.

**Hazırladı: KƏNAN**

# Hamı MDB oyunlarına hazırlaşır, ADY isə...





**Sentyabrin 28-də Azərbaycanın Gəncə şəhərində və digər 6 şəhərində “MDB Oyunları”nın keçirilməsi planlaşdırılır. Sayca III MDB Oyunlarının açılışı, bağlanış mərasimi və 8 idman növü üzrə yarışlar Gəncədə keçiriləcək.**

Yarışın 2025-ci ilin sentyabrin 28-dən oktyabrın 8-ə qədər keçirilməsi planlaşdırılıb. Artıq 8 ölkədən 1846 idmançının iştirakı təsdiqlənib.

Maraqlıdır ki, belə bir əhəmiyyətli yarış ərəfəsində Gəncə Dəmir Yol Stansiyasında qatarların gəlişi bir yandan, digər yandan isə depo rəisi Məğrur Zaidov ştabellərlə piyada səkisini kəsərək, piyada keçidini, yolu tamamilə bağlayıb.



Bu haqda Hurriyyet.az-a məlumat verən vətəndaşlar deyir ki, belə hallarda adətən piyadalar dəmir yolunun alt hissəsi ilə hərəkət edirlər. Şıxzamanlı qəsəbəsi və yola yaxın, yəni tam dəmir yoluna paralel Tbilisi küçəsinin sakinləri isə yolun əks tərəfində qalmış olur.

Görünür, ADY “MDB Oyunları”na məhəl qoymayır. Allah eləsin, Gəncəyə gələn qonaqlar stadiona yaxın olan Dəmir Yol Vağzalına tərəf gəlməsinlər. Əks halda, bütün biabırçılıqlar üzə çıxar...

**Hurriyyet.az**

HƏMAS liderlərini öldürmək üçün İsrail Qətərə aviazərbə endirdi. Məqsədə nail oldular, yoxsa olmadılar - bu, üçüncü-dördüncü dərəcəli məsələdir. Bu hücumun doğurduğu ən əhəmiyyətli məsələ meydana gələn geosiyasi nəticələrdir.

# İslam ölkələrinin yeni güc mərkəzi qurulur

## İtirən tərəf ABŞ və İsrail, qazanan tərəf Türkiyədir

### Hərbi-sənaye kompleksi və etibarlı tərəfdaş imici Türkiyəni Orta Doğunun yeni güc mərkəzinə çevirir



Birinci nəticə: İsrail bütün növ qırmızı cizgiləri keçməyə hazır olduğunu qəti şəkildə təsdiqlədi. Cavab isə yoxdur. Ərəblər ABŞ qorxusu qarşısında elə həmin ABŞ-dən aldıqları trilyonlarla dollarlıq müdafiə sistemlərini İsrailə qarşı istifadə edə bilmirlər. Daha doğrusu, istəsələr belə istifadə edə bilməzlər. Çünki həmin sistemləri işə salan açarlar və parollar Birləşmiş Ştatların əlindədir. Qətərin on milyardlarla dollar dəyərindəki radarları və "Patriot" da daxil olmaqla digər müdafiə sistemləri yaxınlaşan və atəş açan İsrail təyyarələrini görmədilər.

İkinci nəticə: ABŞ ən etibarsız tərəfdaş olduğunu yağ içində böyrək kimi üzən ərəb şeyxlərinə göstərdi. Ağ Ev əyanı şəkildə sübuta yetirdi ki, istənilən "strateji müttəfiqini" elə birinci döngədə satmağa hazırdır. Bütün varidatlarını və təhlükəsizliklərini ABŞ-a əmanət etmiş ərəb monarxiyaları vəziyyətlərinin nə dərəcədə fəlakətli olduğunu anladılar. Bu, çox böyük geosiyasi qırılmadır.

Ərəb şeyxləri ABŞ-dən çox məsələdə narazı olsalar da, təhlükəsizlik məsələsində Ağ Evə hər zaman etibar ediblər. Hesab olunurdu ki, varlı ərəb monarxiyalarında çox ciddi neft və maliyyə maraqları olan ABŞ bu monarxiyaların təhlükəsizliyi məsələsində heç kimə güzəşt etməz. İndi isə bu etibar kökündən sarsıldı. Bıçaq sümüyə dirəndi və bir-birinin ardınca Qətər paytaxtına səfər edən körfəz liderləri açıq şəkildə bəyan edirlər ki, bölgə üçün yeni təhlükəsizlik arxitekturası qurulmalıdır.

Türkiyə mətbuatında gedən məlumatlara görə, Qətərə hücumdan dərhal sonra türk müdafiə sənayesi şirkətləri 2 milyard dollarlıq hava hücumundan müdafiə sistemi sifarişi alıblar. Bu sifarişin hansı dövlət tərəfindən verildiyi açıqlanmır.

Dohadakı hansısa ikimərtəbəli villaya atılan cəmi beş raket Böyük Orta Doğuda 70 ildir mövcud olan təhlükəsizlik sistemini kökündən sarsıtdı. Bu sarsıntı ilk növbədə illərdir ABŞ təhlükəsizlik çətirinin altında yatışan ərəb şeyxlərinin beyinlərində baş verdi. Ayıldılar və nə gündə olduqlarını öz gözləri ilə gördülər. İsrail bəyan edir: "Təhlükəli saydığımız istənilən adamı istədiyimiz yerdə vuracağıq."






Üçüncü nəticə: Dohadakı HƏMAS liderlərini Türkiyə kəşfiyyatı xilas edib. The Wall Street Journal qəzetinin və İsrail mətbuatının iddiasına görə, məhz türk istihbaratından gələn məlumat sayəsində həmasçılar ölümdən qurtulublar.

Qətərdə Türkiyənin hərbi bazası var. Yada salaq ki, məhz türk bazasındakı əsgərlər Qətər şeyxini suiqəsddən və dövlət çevrilişindən xilas etmişdi. Maraqlı vəziyyət yaranır: ABŞ-ın tərəddüdsüz satqınlığı fonunda Türkiyə özünün etibarlı tərəfdaş imicini möhkəmləndirir. Qətəri dövlət çevrilişindən və bəlkə də məhv olmaqdan xilas edən Türkiyə, körfəzin digər ərəb monarxiyaları üçün də alternativ təhlükəsizlik qarantı statusunu qazanmaqdadır.

Bu o deməkdir ki, İsrail istəsə, Səudiyyə Ərəbistanını, Küveyti, Omanı və BƏƏ-ni də vura bilər. ABŞ da buna göz yumar, satdığı müdafiə sistemləri də çalışmaz. Trilyonlarla dollarlıq sərvətə sahib olan şeyxlər çıl-çılpaq ortada qalıblar.

Qətərə zərbənin yaratdığı yeni situasiya ABŞ və İsrail üçün son dərəcə zərərlidir. Birləşmiş Ştatlar əksər dünya ölkələri qarşısında etibarını və hegemoniya iddiasını ildırım sürətilə itirir. Bu sıraya ərəb monarxiyaları da qoşuldular. Qətərdən səslənən çox önəmli bir bəyanat isə İsrailin arzulamadığı mənzərənin yarandığını göstərir. Qətərin xarici işlər nazirinin verdiyi bəyanata görə, İsrailə qarşı tədbirlər almaq üçün yaxın günlərdə ərəb və digər müsəlman dövlətlərinin birgə fəaliyyəti başlanacaq. Yəni Böyük Orta Doğunun yeni təhlükəsizlik konstruksiyası gündəlikdədir və bu konstruksiyada ABŞ və Avropanın adı keçmir.

Başqa sözlə, bütün sərhədləri aşan və hamı üçün böyük təhlükəyə çevrilən İsrailə qarşı yeni güc mərkəzinin formalaşması gündəlikdədir. Ərəb şeyxləri İsrailin fələstinlilərə və suriyalılara qarşı amansızlığına dözürdülər. İndi isə masaya həmin şeyxlərin özlərinin təhlükəsizliyi məsələsi qoyulub. Və onlar addım atmaq, özlərini qorumaq zorundadırlar.

Yeni güc formalaşacaqsa, həmin gücün ABŞ silahlarından başqa böyük silah-sursata ehtiyacı olacaq. Bu gün müsəlman dünyasındakı ən qüdrətli hərbi-sənaye kompleksi Türkiyədədir. Üstəlik, Türkiyə Qarabağ, Qətər, Suriya, Liviya, Ukrayna və digər konfliktli məsələlərdə yüz faiz güvəniləcək tərəfdaş olduğunu əyani sübuta yetirib. Təbiidir ki, böyük hərbi-sənaye kompleksi və etibarlı tərəfdaş imici Türkiyəni Orta Doğunun yeni güc mərkəzinə çevirir.

**Namiq BİLAL**

# TDT Təhlükəsizlik Şurası toplandı



**2025-ci il sentyabrın 12-də Qırğız Respublikasının paytaxtı Bişkek şəhərində Türk Dövlətləri Təşkilatına üzv ölkələrin Təhlükəsizlik Şuraları katiblərinin 4-cü toplantısı keçirilmişdir. Azərbaycan Respublikası Təhlükəsizlik Şurasının katibi Ramil Usubovun rəhbərlik etdiyi nümayəndə heyəti tədbirdə iştirak edib.**

TŞ-dan verilən xəbərə görə, Türkiyə, Qazaxıstan, Qırğızıstan, Özbəkistan və Türk Dövlətləri Təşkilatı Katibliyinin nümayəndələrinin iştirak etdiyi toplantıda bu gün dünyada baş verən sürətli dəyişiklər şəraitində, konkret olaraq, Təşkilata üzv dövlətlər məkanında terrorizm, ekstremizm, separatizm, kibercinayətkarlıq və digər çağırışlarla bağlı görülən tədbirlər, eləcə də Suriya Ərəb Respublikasında baş verən hadisələrin, Əfqanıstandakı vəziyyətin Türk Dövlətləri Təşkilatina üzv ölkələrin təhlükəsizliyinə və sabitliyinə təsiri, həmçinin digər aktual mövzular ətrafında fikir mübadiləsi aparılıb.

Azərbaycan Respublikası Təhlükəsizlik Şurasının katibi Ramil Usubov müzakirə olunan məsələlərlə bağlı çıxış edib.

Digər çıxış və müzakirələrdə qardaş ölkələrin təmsilçiləri müvafiq qurumlar arasında qeyd olunan sahələr üzrə əlaqələrin daha da gücləndirilməsinin əhəmiyyətini, mövcud təhdidlərlə bağlı səmərəli əməkdaşlığın zəruriliyini qeyd etmiş, artmaqda olan müasir çağırış və təhdidlərlə mübarizədə informasiya, qarşılıqlı təcrübə mübadiləsinin gücləndirilməsinin, birgə təlim və treninqlərin keçirilməsinin, beynəlxalq müstəvidə vahid mövqeyin formalaşdırılmasının vacibliyini vurğulayıblar.

Həmin gün Qırğız Respublikasının Prezidenti Sadır Japarov Türk Dövlətləri Təşkilatı regional və beynəlxalq sabitliyin arxitekturasında mühüm yer tutan üzv ölkələrin Təhlükəsizlik Şuraları katiblərinin 4-cü toplantısında iştirak edən nümayəndə heyətlərinin rəhbərlərini qəbul edib.

Qırğız Respublikasının rəhbəri, bu gün regional və beynəlxalq sabitliyin arxitekturasında mühüm yer tutan Türk Dövlətləri Təşkilatına üzv olan dost və qardaş dövlətlərin əməkdaşlığının xarici siyasət, ticarət, enerji və "yaşıl iqtisadiyyat"-dan tutmuş turizm, rəqəmsallaşma və hətta kosmik tədqiqatlara qədər geniş əhatə etdiyini vurğulayıb.

O, Təhlükəsizlik Şuraları katiblərinin bu görüşünün ölkələrimiz arasında əməkdaşlığın və türk dövlətləri məkanında sabitliyin daha da möhkəmləndirilməsinə öz töhfə verəcəyinə əmin olduğunu bildirib.




# Televiziya verilişlərində qadınların aşağılanması: məsuliyyət vaxtı çatıb

**Son illər televiziya kanallarında yayımlanan verilişlərdə bir sıra ciddi problemlər müşahidə olunur. Bunlardan biri efirə çıxan ekspertlərin qadınlara qarşı seksist və aşağılayıcı ifadələr işlətməsidir. Təəssüf ki, bu hallar artıq sistemli bir problemə çevrilib və demək olar, bütün kanallarda təkrar-təkrar görünməkdədir.**

Əslində, efirdə belə ifadələrin səslənməsi təkcə qadınların hüquqlarının pozulması deyil, həm də cəmiyyətə mənfi təsir göstərən təhlükəli tendensiyadır. Çünki qadınların təhqir edilməsi, onların cəmiyyətdə ikinci dərəcəli göstərilməsi qadınlara qarşı zorakılığın və cinayətlərin artmasına birbaşa zəmin yaradır.

Digər tərəfdən, televiziya verilişlərində ekspertlərin seçimi də obyektiv deyil. Bəzən eyni səviyyəli ekspertlər dəvət olunmur. Bir tərəfdə peşəkar jurnalist, digər tərəfdə isə sadəcə blogger çıxış edir. Bu, müzakirələrin balansını pozur və tamaşaçılara manipulyativ təsir göstərir.

Belə halların qarşısını almaq üçün ciddi tədbirlər görülməlidir. İlk növbədə, qadınlara qarşı seksist ifadələr işlədən şəxslərin efirə çıxışına məhdudiyyət qoyulmalı, onların qadınlarla bağlı mövzularda danışması qadağan edilməlidir.

Audiovizual Şura isə yalnız xəbərdarlıqla kifayətlənməməlidir. Kanallara qarşı real sanksiyalar tətbiq edilməlidir: yüksək məbləğdə cərimələr, hətta lazım gələrsə, kanalın yayımının bir neçə saatlıq və ya bir neçə günlük dayandırılması. Yalnız bu halda televiziyalar məsuliyyət hiss edəcək və efir mədəniyyətinə daha ciddi yanaşacaqlar.

Cəmiyyətimiz qadınlara hörmət və bərabərlik üzərində inkişaf etməlidir. Televiziya isə bu prosesin güzgüsüdür. Əgər efirdə qadınlar aşağılanırsa, bu, birbaşa küçələrdə, ailələrdə və ictimai münasibətlərdə öz əksini tapacaq. Ona görə də bu problemin həlli təkcə etik məsələ deyil, həm də ictimai təhlükəsizlik məsələsidir.

Xüsusilə qeyd etmək lazımdır ki, efirdə belə çıxışlara yol verən "ekspertlər" qadınların cəmiyyətdə aşağılanmasına, onlara qarşı zorakılıqların artmasına birbaşa təsir göstərir və bu prosesdə böyük rol oynayır.

**İlkin MƏMMƏDKƏRİMLİ**

# Sabiq icra başçısının oğlu sahibkarın obyektini mənimsəyib

## Əbdürrəhim Cuvarlı: "Mən səlahiyyətli qurumlara sual verirəm: mənə və ailəmə məxsus obyekti Xəqani Əhmədov necə özəlləşdirib?"

## "Özləri də çox yerdə deyirlər ki, bir zənglə məsələni həll etdirdik"

**Beyləqan rayonu, Munis Abbasov küçəsi sakini Cuvarlı Əbdürrəhim Tariyel oğlu tərəfindən "Hürriyyət"in redaksiyasına şikayət məktubu daxil olub. Şikayətçi qəzetimiz vasitəsilə Prezident İlham Əliyevə və Baş prokuror Kamran Əliyevə müraciət edir:**

**"Cənab Prezident!**

**Cənab Baş prokuror!**

Mən, Cuvarlı Əbdürrəhim Tariyel oğlu, yazaraq Sizdən kömək istəyirəm.

Bu il, iyun ayının ortalarında Beyləqan rayonunda yerləşən "Beyləqan" bazarında güclü yanğın oldu. Sahibkarlara külli miqdarda ziyan dəydi. Hər bir sahibkar başına necə çarə qılacağını fikirləşərkən rəhbərlik tərəfindən böyük "surprizlə" qarşılaşdıq.

Belə ki, rayonun keçmiş icra başçısı Xasay Əhmədovun oğlu Xəqani Əhmədov tərəfindən obyektlərimiz mənimsənilib. Bütün bu proses yanğından sonra olub.

Hazırda bazarın bir hissəsinin sahibi keçmiş əmlak müdiri Məhəmmədə, qalan hissəsi isə keçmiş icra başçısı Xasay Əhmədovun oğlu Xəqani Əhmədova aiddir.

Əhmədov Xəqanıya məxsus bazar ərazisində baş vermiş yanğın nəticəsində tamamilə sıradan çıxmış obyektlərin yerində hal-hazırda tikinti prosesi aparılır.

Bizim ailəyə məxsus obyekt də həmin bazarın içində yerləşirdi. Anam çoxuşaqlı olduğu üçün verilmişdi. Sənəddə də var ki, obyektin maya dəyəri ödənildikdən sonra yer bizə qalmalı idi. Yerin maya dəyəri ödənildikdən sonra hərraca çıxmadan, bizə təklif olunmadan Xəqani öz adına keçirib.






Biz bu qanunsuzluğun əziyyətini çəkirik. İllərdir ailəmizin qazanc yeri əlimizdən alınıb.

Bütün lazımi sənədlər və müqaviləmiz olub. Saxtakarlıqla mənimsəyiblər. Xasay Məmmədov hazırda məhkəmə sisteminədə müdaxilə edir. Belə ki, əlimizdə olan sübutlara baxılmadan qərar verilir. Özləri də çox yerdə deyirlər ki, bir zənglə məsələni həll etdirdik.



**Hörmətli Prezident!**

**Hörmətli Baş prokuror!**

Böyük oyun qurub, saxtakarlıq edirlər. Zərərçəkənlər çoxdur. Hazırda bazarın 2 qapısını da bağlı saxlayırlar. Orada gedən tikinti işi də qanunsuz aparılır. Şəkillərdə də görəcəksiniz ki, yüngül tikinti apararaq, növbəti sahibkarların həyatını təhlükəyə atırlar. Adını da qoyublar ki, sahibkarlara dəstək oluruq. Halbuki orda bir daha yanğın olsa, 2-ci mərtəbədə olanlar sağ qalmayacaq.



**Tikinti layihəsi belə, yoxdur. Bəzi suallar var ki, onların hamısı cavabsız qalıb:**

*1. Tikintiyə hansı qurum icazə verib və hansı əsaslarla?*

*2. Tikinti layihəsi FHN və Şəhərsalma orqanları tərəfindən təsdiqlənibmi?*

*3. Bu tikintiyə cavabdeh olan icra strukturları təhlükəsizliklə bağlı hansı tədbirləri görüb?*

Əgər bu işlər qanunsuz və nəzarətsiz şəkildə aparılırsa, dərhal dayandırılmalı və məsul şəxslər barədə tədbir görülməlidir.

Hesab edirəm ki, bu, təkcə bir vətəndaşın deyil, bütün ictimaiyyətin narahatlığına səbəb ola biləcək məsələdir. Bütün sahibkarlar səhv danışa bilərmi, Sizcə?

Biz obyekti işlətdiyimiz müddətdə dövlətin vergisindən heç vaxt boyun qaçırmamışıq. Bu yanğın sanki bazara sahib çıxmaq istəyənlərə fürsət oldu. Maraqlıdır, dövlət qurumlarında işləyənlər üçün qanun yoxdur? Biz dinc sakinlərin əlindən alınmalıdır mülkümüz?



Mən səlahiyyətli qurumlara sual verirəm: mənə və ailəmə məxsus obyekti Xəqani Əhmədov necə özəlləşdirib?

Heç vaxt geri çəkilməyəcəyik. Axıra kimi, səsimizə səs verilənə kimi müraciətlər edəcəyik. Təəssüf ki, bu gün hakimlər haqlı olduğumuz halda bizim haqqımızı tapdalayır. Hakimin özü də bəzi suallara cavab tapa bilmir. Amma yenə də qərarı onların xeyrinə verir.

**Cənab Prezident!**

**Cənab Baş prokuror!**

Sizdən artıq dərəcədə xahiş edirik, bizi qəbul edin, problemimizi daha ətraflı çatdıraq. İstəyirik ki, başımıza açılan saxtakarlıqları öz gözünüzlə görəsiniz. Çoxuşaqlı anaya dövlət tərəfindən verilən obyekt mənimsənilib, bizə kömək edin".

**Jalə FAMİLQIZI**

**Redaksiyadan: Qarşı tərəfin mövqeyini dərc etməyə hazırıq.**

Sumqayıt şəhər sakini Verdiyev Vəkil Rza oğlu tərəfindən "Hürriyyət"in redaksiyasına şikayət məktubu daxil olub. Şikayətçi qəzetimiz vasitəsilə Prezident İlham Əliyevə, Birinci vitse-prezident Mehriban Əliyevaya, İnsan Hüquqları üzrə Müvəkkil (Ombudsman) Səbinə Əliyeva, Daxili İşlər naziri Vilayət Eyvazova və Baş prokuror Kamran Əliyevə müraciət edir:

# "İllərdir evimdə məskunlaşan qaçqınlar məni və ailəmi təhdid edir"

## Sumqayıt sakini Vəkil Verdiyev: "Deyirlər ki, mərkəzi qoyub, dağın dibinə getməyəcəyik, get sən Qubadlıda yaşa"


Verdiyev Vəkil Rza oğlu

Ömrümün çoxu gedib. Mənim də haqqımdır ki, övladlarımı ailəli görüm. Ölümlü dünyadı, niyə mənim cənazəm, evim olduğu halda, yataqxanadan çıxsın? Yaxud insan adına, qadın adına, qaçqın adına ləkə gətirən bir ailə orda yaşasın... Təhdid, təhqir etdi, amma cəzasız qaldı. Budurmu ədalət?

**"Cənab Prezident!**

Hörmətli xanımlar və cənablar!

Mən, Sumqayıt şəhərində 4 otaqlı evi olduğu halda keçmiş məcburi köçkün tərəfindən evi mənimsənilən Verdiyev Vəkil Rza oğlu, yazaraq sizlərdən kömək gözləyirəm.

Artıq yorulmuşam. Cavan deyiləm, əvvəlki sağlamlığım yoxdur. Mən də rahat yaşamaq istəyərəm.

Allaha çox şükür, torpaqlarımız alındı. Cənab Prezident torpaqlarımızı erməni işğalından xilas etdi. Nə qədər analar gözü yaşlı qaldı, balalar atasız qaldı, mərd oğullarımız əlsiz-ayaqsız qaldı, amma həmin oğulların sayəsində biz qalib olduq. Bir olub, birlik göstərib bir-birimizə dəstək olduq. Allah şəhidlərimizə rəhmət eləsin, qazilərə can sağlığı versin.

Mən illərdir utandığımdan öz evimə tərəf baxa bilməmişəm. Çünki onların əziyyətləri gözümün qabağında kino fraqmenti kimi canlanırdı. Hər zaman fikirləşmişəm ki, kiminsə evində yaşamaq heç kəsə xoş olmaz. Amma son vaxtlar baş verənlər mən bu yaşımda dəhşətə gətirib.

Torpaqlarımız alınıb, evimdə yaşayan qaçqın məndən yataqxana və pul tələb edir. Onun da "sağ ol" deməyi belədir yəqin. DTX əməldaşı tərəfindən yoldaşıma təhdid mesajı yazılır. Oğlanlarımın hansısa hirsə boğulub cinayət törətməyindən qorxuram.

Sumqayıt şəhəri, 12-ci mikrorayona köç edib, orada məskunlaşan və yaxud da mənim kimi ev sahiblərini evini mənimsəyən qaçqınlar sanki başqa dünyadan gəliblər. Qadına yaraşmaz hərəkətlər, təhdidlər, söyüşlər inanın adamı dəhşətə gətirir. İllərdir evimdə məskunlaşan ailə bu gün məni və ailəmi təhdid edir. Zavod tərərifndən bizə verilən evlərə qaçqınlar zorla girərək, 32 ildir orada yaşayırlar. Biz isə kürəyədə və yataqxanada sürünürük.

Mərifət, mədəniyyət tamamilə yaddan çıxıb. Bir kişi çıxıb adamla söhbət etmir. Qadın qışqırıqları, qadın söyüşləri bloku bürüyür. Bəzi video görüntülər var ki, orada olan söyüşlərə görə onu saytlarda işıqlandırmağa utandım.

Hər gün təhdid almaq olar? Mən qaçqın deyiləm, amma şərəfim və namusumla yaşayan Azərbaycan vətəndaşıyam. Mən kömək istəyirəm. Oğlumun ailəsi evsizlikdən dağılmaq üzrədir. Mənə kömək edin, öz evimdə yaşayım.

**Cənab Prezident!**

**Hörmətli xanımlar və cənablar!**

İcra məmuru mənə deyir ki, yuxarıdan tapşırıq gəlməsə mən onları evdən çıxara bilmərəm. DİN-in 102 xidmətinə zəng vurmuşam. Polis əməkdaşları gəlib. Onlar belə, bu biabırçılığın qabağında susub qaldılar. Adamı sözləri ilə məcbur edirlər ki, araya qan düşsün.

Ömrümün çoxu gedib. Mənim də haqqımdır ki, övladlarımı ailəli görüm. Ölümlü dünyadı, niyə mənim cənazəm, evim olduğu halda, yataqxanadan çıxsın? Yaxud insan adına, qadın adına, qaçqın adına ləkə gətirən bir ailə orda yaşasıng Təhdid, təhqir etdi, amma cəzasız qaldı. Budurmu ədalət?

Son 4 ildə bizi o qədər məcbur etdilər ki, onların səs yazısını yazıb yaydıq. Məcbur qaldım, amma faydası olmadı.

Onlar biabırçılıqdan da qorxmayan adamlardır. Ətrafımda tanıdığım yaxşı, hörmətli qaçqın ailələri də var. Onlar məni görəndə deyirlər ki, Bəkir kişi, bəzilərinə görə utanırıq.

Axırıncı gedişimizdə polis əməkdaşları da gördü, bir blokun bütün qadınları çıxıb üstümüzə hücüm çəkirdi.

**Cənab Prezident!**

Hörmətli xanımlar və cənablar!

Baş verənlərə baxmayaraq, "Qaçqınkom" və Ədliyyə Nazirliyi susur. Gözləyirlər ki, bəzi qaçqınlar yeyrli sakinləri təngə gətirsin, ortaya qan düşsün. Bu halda biri türməyə, biri də qəbirə gedəcək. Bir qurum çıxıb demir ki, mənimsənilən evlərdən çıxın. "Qaçqınkom"un verdiyi yaşayış yerini qaçqın bəyənmir. Bu hansı qanunda yazılıb? O, bəyənməyib getməyəcək deyə mən evsiz qalmalıyam? Onları ordan köçürmək lazımdır. Xahiş edirəm diqqətə alın. Kimisi deyir ki, hara gedim, dövlət ev versin. Ay onu deyən, erməni sənin evini, sən də mənim evimi mənimsəməlisən?

Mən xahiş edirəm, bu şikayəti cavabsız qoymayın. İcra məmuru işini görmək üçün "yuxarıdan tapşırıq gəlməlidir" deyir. Bu tapşırıq hər nədirsə verilsin, biz də işimizi biləк. Açıq təhdid, təhqir olunuruq, dövlət qurumları buna göz yumur. Bu qədər insafsızlıq olmaz axı.

3 nəfərlik ailənin evimdən çıxmağını tələb edirəm. Öz evimə gedib-gələ bilmirəm. Bütün keçmiş qaçqınlar üstümə gəlib, dava edirlər. "Çıxmırıq, ölsəniz də çıxmırıq. Mərkəzi qoyub, dağın dibinə getməyəcəyik. Get sən Qubadlıda yaşa", - deyirlər.

Səsimə səs verin. Mən və ailəm sizdən kömək istəyirik".

**Jalə FAMİLQIZI**

**P.S. Qarşı tərəfin mövqeyini də öyrənməyə çalışdıq. Keçmiş məcburi köçkün Hüseynova Mehriban Qüdrət qızının oğlu qıraqdan etik qaydalara uyğun olmayan ifadələr işlətdiyinə görə, məcbur qalıb telefon zəngini sonlandırdıq.**

# Evi qəzalı vəziyyətdə olan Ağdam sakini rəsmi qurumlardan kömək istəyir

**Ağdam rayonu, Çəmənli kənd sakini Həsənova Həcər Sabir qızı tərəfindən Hurriyyet.az saytının redaksiyasına şikayət məktubu daxil olub. Şikayətçi bildirir ki, evi uçmaq üzrədir, İcra Hakimiyyəti kömək etmir:**





"Mən, Həsənova Həcər Sabir qızı, yazaraq xahiş edirəm ki, problemimi işıqlandırasınız.

Hazırda çarəsiz durumdayam. Evim qəzalı vəziyyətdədir. 1992-ci ildə kərpicdən tikilmiş evdir. Evin üzəri ağaclarla bağlanılıb. İndi isə yuxarıdakı ağaclar çürüyüb.

Təmir etdirməyə imkanım yoxdur. 2 övladım var. Yoldaşım rəhmətə gedib.

Məsələ ilə bağlı Ağdam rayon İcra Hakimiyyətinin başçısı Vaqif Həsənova dəfələrlə müraciət etmişəm. Ağdam rayonunun tikinti işləri üzrə müdir vəzifəsində işləyən Əbdüləli müəllim də evə baxış keçirib. Yararsız vəziyyətdə olduğunu deyib. Bizə kömək edəcəklərini bildirsələr də kömək etmirlər.

2016-cı ildə evimizin bərba olunacağı ilə əlaqədar xəbər aldıq. Vaqif bəy yenə sözünün üstündə durmadı.

Ev kərpicdən olduğu üçün uçur. Onu söküb yenidən bərpa etmək lazımdır. Evimi yenidən tikdirməyə mənim gücüm yoxdur. 2 uşaqla acınacaqlı vəziyyətdə yaşayıram. Havalar birazdan soyuyacaq...

Bütün səlahiyyətli qurumlardan kömək istəyirəm. Mən demirəm ki, mənə villa tiksinlər. Sadəcə, başımızı içinə sala biləcəyimiz bir evimiz olsun".

**Jalə FAMİLQIZI**

**Redaksiyadan: Yazıda adı çəkilən şəxslərin mövqeyini dərc etməyə hazırıq.**

Azərbaycan Respublikasının
Medianın İnkişafı Agentliyi

İctimai və dövlət
maraqlarının müdafiəsi

# Fərdi maraqlar dövlət maraqlarının önünə keçərsə...

## Və yaxud ictimai maraqların müdafiəsində vətəndaş faktoru

*"Dövlətlər də insanlar kimidir, çünki onlar da insan xarakterindən yaranırlar"*
**Platon**



**Yazımıza qədim yunan filosofu Platonun məşhur kəlamı ilə başlamağımız heç də təsadüf deyil. Çünki dövlətlər onun sərhədləri daxilində yaşayan, Platonun təbirincə desək, ona "bənzəyən" insanların (xalqların) birliyindın yarandığından, hər bir dövlətin marağı da, təbii olaraq, onun vətəndaşlarının arzu və istəkləri ilə uzlaşır. Əlbəttə, bütün tarixi dönəmlərdə istisnalar olub və insan cəmiyyəti mövcud olduqca hər zaman və hər bir toplumda bu cür istisnaların olacağı da şübhəsizdir. Amma əminliklə deyə bilərik ki, hər bir dövlətin və cəmiyyətin inkişafı vətəndaş faktoruna bağlıdır. Hətta belə də ifadə edə bilərik ki, dövlət vətəndaşların birliyindən təşkil olunmuş dayaqlar üzərində dayanan "mexanizmdir". Bu dayaqlar nə qədər möhkəm olarsa, şübhəsiz, dövlətin ömrü və gücü də bir o qədər artıq olar.**

*(Əvvəli ötən sayımızda)*

### İctimai və dövlət maraqlarına kənar müdaxilələr

Təəssüflə qeyd etməliyik ki, zaman-zaman ictimai və dövlət maraqlarımıza istər xaricdən, istər də daxildən zərbə vurulmasına cəhdlər olunub. Xüsusən də Azərbaycan dövləti müstəqillik qazandıqdan sonra, əksər qonşu dövlətlərin bu sahədə aşkar pozuculuq fəaliyyətinin şahidi olmaqdayıq. Burada bütün zamanlarda Rusiya faktoru daha qabarıq görünüb. Hansı ki, düşmən ölkənin - Ermənistanın vaxtilə Azərbaycan torpaqlarının işğalında Moskvanın dəstəyindən yararlandığı kimsəyə sirr deyil.

Rusiyanın 44 günlük Qarabağ savaşınadək Azərbaycanla müharibə şəraitində olan Ermənistana dəstək verməsinin ən mühüm səbəblərindən biri xristian faktoru olsa da, təəssüflə qeyd etməliyik ki, islam dövləti olan İran İslam Respublikası da ermənilərdən son 30 il ərzində siyasi-hərbi sahədə dəstəyini əsirgəməyib. Doğrudur, rəsmi Tehran sözdə Azərbaycanın ərazi bütövlüyünü dəstəklədiyini bəyan edir. Amma biz illərdir İranın əməli fəaliyyətində tamamilə fərqli mənzərənin şahidi olmaqdayıq.

### Rusiya faktoru

Yuxarıda da qeyd etdiyimiz kimi, hər bir dövlətin maraqlarının başında onun müstəqilliyi, suverenliyi və təhlükəsizliyinin qorunması dayanır. Çox təəssüf ki, Azərbaycan dövlətinin 1991-ci ildə öz müstəqilliyini bərpa etməsi və qısa müddət ərzində sürətli inkişaf yoluna qədəm qoyması bəzi qonşularımızı narahat etdi və hazırda da həmin narahatçılıq özünü büruzə verməkdədir. Məsələn, hələ də imperiya xülyası ilə yaşayan Putin Rusiyası Azərbaycanın müstəilliyi ilə barışa bilmədiyindən, zaman-zaman bu ölkə tərəfindən dövlətçiliyimizə qəsd cəhdlərinin, təhlükəsizliyimizə qarşı çoxsaylı təxribat planlarının həyata keçirilməsinin şahidi olmaqdayıq. Təsadüfi deyil ki, 2020-ci ildə Müzəffər ordumuz torpaqlarımızı işğaldan azad edənədək Qarabağ konflikti bu ölkənin əlində Azərbaycana təzyiq vasistəsi olaraq qalmaqda idi. Hansı ki, məhz Kremlin müdaxiləsi nəticəsində Azərbaycan özünün dövlət maraqlarının ən vacib elementlərindən biri olan ərazi bütövlüyünü bərpa edə bilmirdi. Moskva yaxşı bilirdi ki, Qarabağ probleminin həlli çözülərsə və Azərbaycan özünün işğal altındakı torpaqlarını azad edərsə, tez bir zamanda iqtisadi sıçrayış əldə edə bilər. Bu isə, şübhəsiz, Rusiyanın Azərbaycan üzərində təsir imkanlarının sıradan çıxması, hətta gələcəkdə bu ölkənin özünün parçalanaması ilə nəticələnə bilər.

### İran faktoru

Sözsüz ki, uzun illərdir Azərbaycanın ərazi bütövlüyünü bərpa edərək, sürətlə inkişaf prosesinə qədəm qoymasından narahat olan qonşu ölkələrdən biri də İran idi. Rəsmi Tehranın da illərdir "Qarabağ kartı"ndan yararlanması, yəni ermənilərə bütün sahələrdə, xüsusən də hərbi və iqtisadi sahədə dəstək verməsi heç də təsadüf deyildi. Görünür, İran da Azərbaycanın iqtisadi cəhətdən güclənməsinin gələcəkdə bütövləşmə istəyi ilə nəticələnəcəyindən, yəni "Bütöv Azərbaycan" ideyasının reallaşmasına rəsmi səviyyədə cəhd olunacağından narahatdır. Təsadüfi deyil ki, hər zaman Güney Azərbaycan məsələsinə çox həssas yanaşan fars rejimi, İranda yaşayan 40 milyon Azərbaycan türkünü bütün hüquqlardan, hətta ana dilində təhsil almaq hüququndan belə, məhrum edib. Bu isə, şübhəsiz, həmin toplumun milli-mənəvi dəyərlərini fars mədəniyyəti içərisində əritmək istəyi ilə bağlıdır.

### "5-ci kolon"ların fəaliyyəti

Onu da qeyd etməliyik ki, istər Rusiya, istər də İrana bağlı qüvvələr tərəfindən zaman-zaman ictimai maraqlarımıza yönəlik çoxsaylı cəhdlər də olunmaqdadır. Məsələn, Rusiyanın "5-ci kolon"nun Azərbaycanda aktiv fəaliyyəti illərdir göz önündədir. Hansı ki, bu şəbəkənin üzvləri arasında yüksək dövlət orqanlarında, Milli Məclisdə, eləcə də ayrı-ayrı ictimai-siyasi qurumlarda təmsil olunan şəxslərin mövcudluğu, onların müxtəlif dönəmlərdə ictimai və dövlət maraqlarımıza zərbə vurmaq cəhdləri kimsəyə sirr deyil. Ən təhlükəlisi isə odur ki, bu insanlar bəzi hallarda özlərini Rusiyanın təmsilçisi kimi aparır və ictimaiyyəti də məhz bu ölkənin maraqlarına uyğun istiqamətləndirməyə çalışırlar.

İrana bağlı olan "5-ci kolon" isə Azərbaycanda daha çox din pərdəsinə bürünüb. Əlbəttə, Azərbaycan dünyəvi dövlət olduğundan, ölkəmizdə fəaliyyəti qanunla tənzimlənən bütün dini təriqətlərin öz ideya və düşüncələrini yayması normal haldır. Lakin bu zaman ictimai maraqlarımız nəzərə alınmalıdır. Azərbaycan islam dövləti və əhalisinin böyük əksəriyyəti şiə mənsəbinin daşıyıcısı olduğundan, İran İslam Respublikasına bağlı qurumların və şəxslərin sağlam dini dəyərləri təbliğ etməsinə yanlış baxmaq olmaz. Əfsuslar ki, biz əksər hallarda İrana bağlı olan və bu ölkədən maliyyələşən qurumların və fərdlərin fəaliyyətinin arxasında tamamilə təhlükəli maraqların şahidi olmuşuq. Buna miasl olaraq 2016-cı ildə baş verən Nardaran hadisələrini göstərə bilərik. Hansı ki, burada ifşa olunan qanunsuz fəaliyyət birbaşa ictimai və dövlət maraqlarımıza hədəflənmişdi. Bu səbəbdən, həmin hadisə nəticəsində İrana bağlı olan bir sıra "siyasətçi"lərin, "din adamları"nın həbs olunması heç də təsadüf deyildi.

Əlbəttə, istər Rusiya, istər də İrana bağlı qüvvələr tərəfindən ölkəmizdə çox sayda təxribat cəhdləri həyata keçirildiyi hər kəsə bəllidir. Sadəcə, bu yazımızda onları bir-bir xatırlatmağımıza ehtiyac duymuruq.

### Ermənistan faktoru

Təbii ki, Azərbaycanın dövlətçiliyinə qarşı fəaliyyət göstərən ölkələrdən biri də illərdir regionda Rusiyanın "for-postu" rolunda çıxış edən Ermənistan idi. Lakin artıq "erməni problemi" təkcə bizim üçün deyil, bütün Qafqaz xalqları üçün bitmək üzrədir. Belə ki, ordumuzun 44 günlük Qarabağ savaşında əldə etdiyi nailiyyət, eləcə də Azərbaycan dövlətinin apardığı uğurlu xarici siyasət artıq öz məntiqi sonluğuna yaxınlaşmaqdadır. Hansı ki, tezliklə ölkələrimiz arasında sülh sazişinin imzalanması qaçılmazdır.

### "Sapı özümüzdən olan baltalar"



Yuxarıda sadaladığımız xarici faktorlarla yanaşı, daxildə də ictimai maraqları yanlış istiqamətə yönləndirən, dövlətin müstəqilliyinə və suverenliyinə qarşı çıxan "sapı özümüzdən olan baltalar" az deyil. Bu qüvvələr arasında Qərbdəki erməni lobbisinə xidmət edənlərə belə, rast gəlinir. Dəfələrlə şahidi olmuşuq ki, onlar öz havadarlarından aldıqları qrantlar hesabına açıq şəkildə ölkəmizə qarşı fəaliyyət göstərirlər. Ən üzücüsü isə odur ki, həmin qüvvələr və şəxslər barəsində qanun çərçivəsində tədbirlər görüldükdə isə, xaricdə Azərbaycana qarşı fəaliyyət göstərən bəzi "hüquq müdafiəçiləri"nin, eləcə də onların müxtəlif dövlətlərdə və beynəlxalq təşkilatlarda olan havadarlarının "siyasi məhbsu" siyahılarında yer alırlar. Bu şəxslər arasında müxtəlif siyasi partiyalarda, Qeyri Hökumət Təşkilatlarında və mediada çalışanlar üstünlük təşkil edir.

### Siyasətçilər

Birincilərdən - siyasilərdən söhbət açarkən ABŞ-ın keçmiş prezidenti Ronald Reyqanın məşhur bir fikri yada düşür: "Deyirlər siyasət ikinci qədim peşədir. Ancaq mən bu nəticəyə gəlmişəm ki, o birincidən çox şey əxz eləyib". Təəssüf ki, Azərbaycanda da siyasəti "qədim peşə" ilə dəyişik salan bir qrup zümrə üçün pul (maliyyə) ən başlıca hədəf kimi qəbul edilib. Ən dəhşətlisi isə odur ki, onlar üçün bu maliyyənin haradan gəlməsi və hansı məqsədlə verilməsi heç vaxt əhəmiyyət kəsb etmir. Əsas odur ki, həcmi çox olsun, lazım gəlsə, dövlətin və millətin maraqlarını da satışa çıxararlar. Necə ki, biz bunun dəfələrlə şahidi olmuşuq.

### QHT nümayəndələri

Qeyri Hökumət Təşkilatlarında təmsil olunanlar arasında da oxşar maraqların daşıyıcıları az deyil. Doğrudur, Azərbaycanda qəbul olunan müvafiq qanunvericiliyə əsasən, artıq xaricdən qəbul olunan qrantların həcmi məhdudlaşdırılıb və son bir neçə ildə bu sahəyə nəzarət gücləndirilib. Odur ki, indi xarici donorlardan maliyyələşən QHT-lərin fəaliyyətində qismən durğunluq yaranıb. Bu vəziyyətdə isə onların bir çox müxtəlif ölkələrə üz tutaraq, orada fəaliyyət göstərəməyə üstünlük veriblər. Bu fəaliyyət isə, qeyd etdiyimiz kimi, əksər hallarda Azərbaycanda xaos, vətəndaş qarşıdurması yaratmağa, ictimai maraqları tamamilə fərqli istiqamətə yönləndirməyə xidmət edir.

Sonda onu da vurğulayaq ki, hər bir dövlətin suverenliyinin möhkəmlənməsi üçün dövlət maraqları ilə ümummilli maraqlar üst-üstə düşməlidir. Bu vəziyyət fərdi maraq və ictimai maraq arasında qarşılıqlı tamamlanma üçün zəmin yaranır. Bu isə, özlüyündə dövlətin özünümüdafiə instinktini formalaşdırmaqla yanaşı, inkişaf konsepsiyasını da ortaya çıxarır.

**"Hürriyyət"**

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyəsi əsasında çap olunur

# Rusiya Kiyevə Belarusdan hücum edə bilər



## 30 minlik qoşun hara göndəriləcək?

**Sentyabrın 12-də başlayan Rusiya və Belarusun birgə "Qərb-2025" təlimləri sentyabrın 16-na kimi davam edəcək. Xatırladaq ki, 2021-ci ildəki analoji manevrlər sonradan Rusiyanın Ukraynaya təcavüzü ilə nəticələndi.**

Ukraynada və Qərbdə Belarusdakı "Qərb-2025" təlimlərində iştirak edən qoşunların sonrakı hərəkəti ilə bağlı müxtəlif versiyalar müzakirə olunur. Məsələn, Almaniyanın "Bild" nəşrinin tanınmış analitiki Julian Röpke hesab edir ki, ruslar və belaruslar "Suvalsk dəhlizi" adlanan ərazini ələ keçirmək üçün təlim keçirirlər.

Xatırladaq ki, 100 kilometrlik bu dəhliz strateji əhəmiyyət daşıyır - işğal olunacağı təqdirdə Kalininqradı Belarusla birləşdirir və Pribaltika respublikalarını Polşadan ayırır.

"Bild" nəşrinə görə, Vladimir Putinin "Qərb-2025" birgə hərbi təlimlərində toplanmış qüvvələrdən istifadə etmək üçün bir neçə mümkün variantı var. Nəşrin hesablamalarına görə, təlimlərə 30 minə yaxın hərbçi cəlb olunub.

Mütəxəssislər bu qüvvələrin Avropaya yeni hücum riskini artırdığını qeyd edirlər və bildirirlər ki, Kremlin bu istiqamətdə üç əsas ssenarisi var:

1. Qoşunu Qərb üçün daimi təhlükə olaraq Belarusda saxlamaq;
2. Şimaldan bir daha Ukraynaya hücum etmək;
3. Diqqətin Belarus sərhəddində cəmləşməsindən istifadə edərək, başqa yerdə gözlənilməz hücum həyata keçirmək.

Təhlilçilər vurğulayırlar ki, Kreml güc nümayiş etdirir, NATO isə hələ də cavab vermək üçün tam hazır görünmür. Misal kimi sentyabrın 10-da Rusiya pilotsuz təyyarələrinin Polşaya hücumu ilə bağlı insidenti göstərilir. Həmin vaxt ucuz Rusiya PUA-larını məhv etmək üçün hərəsi yarım milyon dollara yaxın olan bir neçə raketdən istifadə edilmişdi. Həmçinin, Polşaya soxulan 20-dən çox PUA-dan yalnız 4-ü vurulmuşdu.

Bununla belə, rusiyalı analitiklər və şərhçilər isə Rusiyanın son "Qərb-2025" hərbi təlimlərini açıq şəkildə tənqid edirlər. Onlar Rusiya Müdafiə Nazirliyini Ukraynadakı müharibənin dərslərindən nəticə çıxarmayan qeyri-real manevrlər keçirməkdə ittiham edirlər.

Hər necə olsa, sözügedən təlimlər Avropa və Ukrayna üçün təhlükə mənbəyidir. Belarusa toplanmış qüvvələrdən necə istifadə ediləcəyi daha çox NATO-nun Kremlə qarşı göstərəcəyi təpkidən, iradədən asılıdır. Hələlik isə vaxtilə qüdrətli, sarsılmaz təşkilat kimi bilinən bu hərbi alyans "çat verməkdə" və zəiflik göstərməkdə davam edir.

**C.Məmmədli**

# Ukrayna Rusiyanın "ürəyinə" zərbələr endirir

## Ölkənin neft-qaz infrastrukturunun yarısı zədələnib

Ukrayna ordusunun son həftələrdə Rusiyanın enerji infrastrukturuna endirdiyi ardıcıl zərbələr Kreml üçün ciddi böhrana çevrilməkdədir.

Azpolitika.info xəbər verir ki, son 45 gün ərzində 12 iri neft emalı zavoduna ümumilikdə 17 zərbə endirilib. Bu zavodlar Rusiyanın ümumi emal gücünün 42 faizini təşkil edir. Bu isə o deməkdir ki, Moskvanın həm daxili yanacaq bazarı, həm də xarici ixrac imkanları çökmə təhlükəsi ilə üzüzədir.

**Beləliklə, ay yarım ərzində aşağıda qeyd olunan zavodlar ardıcıl hədəfə alınıb:**

2 avqust - Novokuybyşevsk və Ryazan zavodları
7 avqust - Afipsk zavodu
10 avqust - Saratov zavodu
14 avqust - Volqoqrad zavodu
15 avqust - Sızran zavodu
19 avqust - Volqoqrad zavoduna ikinci hücum
21 avqust - Novoşakhtinsk zavodu
24 avqust - Sızran zavoduna ikinci hücum
28 avqust - Kuibışev və Afipsk zavodları
30 avqust - Krasnodar və Sızran zavoduna üçüncü zərbə
5 sentyabr - Ryazan zavoduna ikinci hücum
7 sentyabr - İlsk zavodu
13 sentyabr - Novo-Ufa zavodu
14 sentyabr - Kiriş zavodu.



Bu siyahıdan aydın görünür ki, Ukrayna artıq təsadüfi hədəflərə yox, Rusiyanın enerji "ürəyinə" zərbələr endirir.

Neft emalı zavodları Rusiyanın büdcə gəlirlərinin əsas sütunlarından biridir. Onların sıradan çıxarılması daxildə yanacaq qıtlığına, ixracda isə kəskin azalmaya gətirib çıxarır. Nəticədə isə daxildə qiymət artımı və sosial narazılıq qaçılmaz olur.

Rusiya rəhbərliyi məcburən daxili bazarı qorumaq üçün ixraca qadağa və məhdudiyyətlər tətbiq etməyə hazırlaşır. Bu isə həm Asiya bazarında, həm də Qərbə yanacaq daşıyan kölgə şəbəkələrində ciddi silkələnmə yaradacaq.

Ukraynanın bu hücumları yalnız hərbi deyil, həm də siyasi məna daşıyır. Kreml illərdir dünyaya "enerji nəhəngi" obrazı sırımağa çalışırdı. İndi isə Rusiyanın ən böyük zavodlarının bir-bir sıradan çıxması bu mifin dağılmasına səbəb olur.

Bu həm də Moskva daxilində narazılığın artması üçün əlavə amildir. Çünki müharibənin qiymətini indi artıq cəbhədəki əsgərlər deyil, benzinsiz qalan sadə ruslar da ödəməyə başlayır.

Beləliklə, Ukrayna son 45 gündə göstərdi ki, müharibəni yalnız cəbhədə deyil, həm də Rusiyanın iqtisadi "damarlarında" aparır. Bu proses davam edərsə, yaxın aylarda Kreml həm daxildə sosial partlayış, həm də beynəlxalq arenada etibar itkisi ilə üz-üzə qala bilər.

**Rasim Əliyev**



# Ölkəni tərk etmədi, həbs olundu

### Lukaşenkonun azad etdiyi müxalifətçi yenidən həbsxanaya qayıtmağa üstünlük verdi

**Sentyabrın 11-də azadlığa buraxılan belaruslu siyasətçi Nikolay Statkeviç Minsk və Vaşinqton arasında razılaşmalar çərçivəsində Belarusu tərk etməkdən imtina etdikdən sonra yenidən həbsxanaya qaytarılıb.**

Bu barədə müxalif "Naşa Niva" nəşri məlumat yayıb.

Sentyabrın 11-də 69 yaşlı Statkeviç Litva sərhədindən deportasiya olunmaq üçün avtobusda koloniyadan çıxarılıb. Lakin neytral zonada ölkəni tərk etmək fikrində olmadığını bildirərək qapını sındıran müxalifətçi bayıra çıxıb. Litva sərhədçilərinin sözlərinə görə, o, Belarus ərazisinə qayıdıb. Lakin bütün bu müddət ərzində onun dəqiq harada olduğu naməlum olaraq qalıb. İndi isə məlum olur ki, onu koloniyaya qaytarıblar.

Statkeviç hələ 2020-ci ilin mayında, prezident seçkiləri və kütləvi etirazlar başlamazdan əvvəl həbs edilib. 2021-ci ilin dekabrında o, kütləvi iğtişaşların təşkilində ittiham edilərək 14 il müddətinə azadlıqdan məhrum edilib.

Keçmiş hərbçi və Belarus Sosial Demokrat Partiyasının (Narodnaya Xromada) lideri olan Statkeviç 2010-cu ildə keçirilən prezident seçkilərində də iştirak edib və dekabrın 19-da keçirilən etiraz aksiyasında iştirak etdiyinə görə 6 il müddətinə azadlıqdan məhrum edilib. 2015-ci ildə azadlığa çıxıb, lakin siyasi fəaliyyətini davam etdirib.

Statkeviç də daxil olmaqla 52 siyasi məhbusun azadlığa buraxılması Minsk və Vaşinqton arasında razılaşmaların tərkib hissəsi idi. Aleksandr Lukaşenko ilə ABŞ Prezidentinin nümayəndəsi Con Koul arasında danışıqlardan sonra məlum olub ki, ABŞ Belavia Hava Yollarına qarşı sanksiyaları ləğv edib. Lukaşenko Donald Trampa "sülhməramlı səylərinə" görə təşəkkür edib və ABŞ ilə "qlobal razılaşmaya" hazır olduğunu bildirib.

# Özünün xəbəri olmadan adına şirkət açdılar, külli miqdarda vergi borcu yığıldı...

## İnəyini satıb, borcunun yarısını ödəyən Gədəbəy sakinindən Baş prokurora müraciət



**Gədəbəy rayonu, Daşbulaq kənd sakini Məmmədhəsənov Natiq Mehti oğlu tərəfindən "Hürriyyət"in redaksiyasına şikayət məktubu daxil olub. Şikayətçi qəzetimiz vasitəsilə Baş prokuror Kamran Əliyevə müraciət edir:**

**"Cənab Kamran Əliyev!**

Mən, Məmmədhəsənov Natiq Mehti oğlu, bildirirəm ki, oxuma-yazma bilməyən adamam. 1 il bundan qabaq Laçın şəhərində "Sultan Eren" şirkətində fəhlə kimi işə başlamışdım. Rəhbər şəxslərdən birinin adı Natiq idi. Soyadını bilmirəm. Şirkət Dərnəgüldə yerləşirdi. Orada mənə dedilər ki, VÖEN-nin olmasa, biz sənə əmək haqqı ödəyə bilməyəcəyik. Məcbur qalıb VÖEN açdırdım. Bilmədim ki, savadsızlığımdan istifadə edib, başıma oyun açacaqlar.

Qeyd edim ki, ASAN imza və digər sənədlərimi də əlimdən aldılar ki, bizdə qalmalıdır.

1 il sonra mənə vergidən məlumat gəldi ki, 2 min manat vergiyə borcun var. 1 inəyim var idi, məcbur qalıb satıb, ödəniş etdim. Hazırda 1000 manat borcum qalıb. Mənim olmayan borcu ödəmək çox çətindir. Şirkət rəhbəri saxtakarlıq edib, vergini mənim boynumda qoyub.

5 manat qazanacağımı düşünərkən 15 manat geri düşmüşəm. Qarabağda işlədiyim zaman məni aldadıb, adıma VÖEN açıblar. Zəng vururam, zənglərimə cavab vermirlər. Xahiş edirəm, mənə kömək edin".

Qeyd edək ki, məsələ ilə bağlı "Sultan Eren" şirkətinin rəhbər şəxsləri ilə əlaqə saxlamağa çalışsaq da, telefon zənglərimiz cavabsız qaldı.

**Jalə FAMİLQIZI**

**P.S. Təəssüf ki, son zamanlar ölkədə bu səpkili dələduzluq baş alıb gedir. Kim kimi, harda bacarırsa, aldadır.**

**Redaksiyamıza gələn şikayətlər nəticəsində bəlli olur ki, gömrük üzərindən də bu oyunlar oynanılır, "qara firmalar" başqa şəxslərin adına VÖEN açıb, dələduzluq edirlər. Təəssüf ki, hüquq-mühafizə orqanları məsələ ilə bağlı sakitliyini qoruyur. Hətta Dövlət Vergi Xidmətinin əməkdaşları işin başında duranı yox, adına borc olanı sıxışdırır. Bir sözlə, zərər-ziyan çəkən kasıb, savadsız insanlar olur.**

**Maraqlıdır ki, bu kimi hallarda şirkətin rəhbəri istintaqa dəvət edilmir. Bütün oyunu quran şəxslər məsələdən kənar saxlanılır. Yazıq kasıb da nə qədər çabalasa da, işin içindən çıxa bilmir. Vəkil tutmağa da imkanı olmur. Görünən odur ki, ölkəmizdə kasıb, imkansız şəxslər "heç kəsə lazım deyil".**

**Ağdaş rayonu, Yuxarı Qəsil kənd sakini Əzizov Yusif Vəli oğlu tərəfindən "Hürriyyət"in redaksiyasına şikayət məktubu daxil olub. Qəzetimiz vasitəsilə Prezident İlham Əliyevə, Birinci vitse-prezident Mehriban Əliyevaya, Məhkəmə-Hüquq Şurasının sədri İnam Kərimova və Baş prokuror Kamran Əliyevə müraciət edən şikayətçinin məktubunu olduğu kimi dərc edirik:**




# Ağdaş sakini oğlunun ölümünə səbəb olan şəxsin cəzalandırılmasını tələb edir

## Yusif Əzizov hakim Günay Aşurovanın məsuliyyətə cəlb olunması ilə bağlı ölkə rəhbərliyinə və Məhkəmə-Hüquq Şurasına müraciət edib

"Mən 18 noyabr 2023-cü il tarixdə baş vermiş ağır yol-nəqliyyat hadisəsi nəticəsində həlak olmuş Əzizov Yunis Yusif oğlunun atası və cinayət işində zərərçəkmiş şəxsin hüquqi varisi olaraq, mətbuat vasitəsi ilə Prezident İlham Əliyevə, Birinci vitse-prezident Mehriban xanım Əliyevaya, Məhkəmə-Hüquq Şurasının sədri cənab İnam Kərimova, Baş prokuror cənab Kamran Əliyevə müraciət ünvanlayıram.



AZƏRBAYCAN RESPUBLİKASI
ŞƏKİ AĞIR CİNAYƏTLƏR MƏHKƏMƏSİ
AZ 5500 Şəki şəhəri, S.Mümtaz küç.318
www.shekigravecrimescourt.gov.az
Tel: (02424)4-41-06, Faks: (02424)4-39-42
contact@shekigravecrimescourt.gov.az

№ 1(091)-25/2025
06 avqust 2025-ci il

**Zərərçəkmiş şəxsin hüquqi varisi Əzizov Yusif Vəli oğluna**
**Ünvan: Ağdaş rayonu Yuxarı Qəsil kəndi**

Hörmətli Yusif Vəli oğlu,

Sizin Azərbaycan Respublikasının Baş Prokurorluğuna ünvanladığınız 09.07.2025-ci il tarixli ərizəniz aidiyyəti üzrə Şəki Ağır Cinayətlər Məhkəməsinə daxil olmuşdur.

Ərizənizdə göstərilən məsələlərlə bağlı bildirilir ki, Həsənov Röyal Fazil oğlunun Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 263.3-cü maddəsi ilə təqsirləndirilməsinə dair cinayət işi üzrə bütün məhkəmə iclasları Azərbaycan Respublikası Cinayət-Prosessual Məcəlləsinin tələblərinə uyğun olaraq aparılmış və məhkəmə araşdırması davam etdirilir.

Cinayət işi üzrə 13.05.2025-ci il tarixdə təqsirləndirilən şəxs Həsənov Röyal Fazil oğlunun barəsində komission məhkəmə-tibbi ekspertizasının təyin edilməsi barədə qərar çıxarılmış və ekspertizanın aparılması Azərbaycan Respublikası Səhiyyə Nazirliyi "Məhkəmə Tibbi Ekspertiza və Patoloji Anatomiya Birliyi" Publik Hüquqi Şəxsə həvalə edilmişdir.

İş üzrə müvafiq ekspert rəyi məhkəməyə daxil olduqdan sonra Həsənov Röyal Fazil oğluna elan edilmiş ittihamın hərtərəfli, tam və obyektiv baxılması üçün mühüm əhəmiyyətə malik olan bütün hallar hərtərəfli və tam araşdırıldıqdan sonra qanunla nəzərdə tutulmuş qaydada yekun məhkəmə aktı qəbul ediləcəkdir.

**Hörmətlə, sədr: Rafail Əliyev**

**Sənədi elektron imzalayan şəxsin vəzifəsi, adı və soyadı: Hakim -** Rafail Əliyev
**Məhkəmənin adı:** Şəki Ağır Cinayətlər Məhkəməsi
**Sənədin elektron yüklənmə ünvanı:**
http://e-mehkeme.gov.az/signed/ShowEdoc?guid=b7242964e81942c5a0c9a1ffd8d120ab

**Qeyd:** «Elektron imza və elektron sənəd haqqında» Azərbaycan Respublikası Qanununun 3-cü maddəsinə əsasən elektron imza əl imzası ilə bərabər hüquqi qüvvəyə malikdir. Elektron imza şəxsin kağız daşıyıcı üzərindəki

2023-cü il 8 noyabr tarixində Həsənov Röyal Fazil oğlu Ağdaş rayonu ərazisində idarə etdiyi avtomobillə qarşı tərəfin yoluna çıxaraq qəza törətmiş, nəticədə sərnişin -mənim övladım Əzizov Yunis Yusif oğlu, eləcə də sürücü Umarov Nəriman Həbib oğlu həlak olmuş, digər sərnişin Daşdıyev Cavad Əziz oğlu isə ağır bədən xəsarətləri almışdır. Faktla bağlı Azərbaycan Respublikası CM-nin 263.3-cü maddəsi ilə cinayət işi başlanmış, iş üzrə ibtidai istintaq aparılmış və 2024-cü ilin fevral ayında Şəki Ağır Cinayətlər Məhkəməsinə göndərilmişdir.

İş üzrə 2024-cü ilin may ayında ilk məhkəmə-tibbi ekspertiza keçirilsə də, təkrar ekspertiza barədə qərardad 13 may 2025-ci il tarixdə hakim Günay Aşurova tərəfindən qəbul edilmişdir.

Lakin 04.09.2025-ci il tarixdə mənə təqdim olunmuş rəsmi cavab məktubundan məlum olmuşdur ki, həmin qərardad üzrə sənədlər bu günədək Məhkəmə-Tibbi Ekspertiza və Patoloji Anatomiya Birliyinə göndərilməmişdir. Bu, cinayət işinin qəsdən süründürülməsi və təqsirləndirilən şəxsin məsuliyyətdən yayınmasına şərait yaradır.

Qeyd etmək istəyirəm ki, təqsirləndirilən Röyal Həsənov 27.09.2024-cü il tarixdə Ağdaş Rayon Mərkəzi Xəstəxanasında volker cihazı ilə müayinə olunmuş və həkim rəyi ilə 3 aydan sonra sərbəst hərəkət edə biləcəyi göstərilmişdir. Buna baxmayaraq, sonrakı məhkəmə iclaslarına xərəkdə gətirilmiş və saxta "ağır xəstə" görüntüsü yaradılmışdır. Hakim Günay Aşurova bu əsassız bəhanəni qəbul edərək, 13.05.2025-ci il tarixdə təkrar ekspertiza barədə qərardad çıxarmış, lakin sənədləri qəsdən göndərməyərək, işin süni uzadılmasına yol vermişdir.



AZƏRBAYCAN RESPUBLİKASI SƏHİYYƏ NAZİRLİYİ
"MƏHKƏMƏ TİBBİ EKSPERTİZA VƏ PATOLOJİ ANATOMİYA BİRLİYİ" PUBLİK HÜQUQİ ŞƏXSİ
AZ 1078, Bakı şəhəri
Mərdanov qardaşları küçəsi, 131
Tel:594-78-11, Faks: 594-63-43
Elektron poçtu: : mtepab@eschiyye.az

«05» 07 2025-ci il
№ 334

**Ağdaş rayonu, Yuxarı Qəsil**
**kənd sakini**
**Əzizov Yusif Vəli oğluna**

Sizin 14.07.2025-ci il tarixdə Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin "Məhkəmə Tibbi Ekspertiza və Patoloji Anatomiya Birliyi" Publik hüquqi şəxsinə daxil olmuş təkrar şikayət ərizənizə baxıldı.

Bununla bağlı bir daha bildiririk ki, qaldırılan məsələ sizin Azərbaycan Respublikasının Səhiyyə Nazirliyinə daxil olmuş şikayət ərizəniz əsasında Səhiyyə Nazirliyinin tapşırığı ilə hərtərəfli araşdırılmış və nəticəsi barədə həm sizə, həm də Səhiyyə Nazirliyinə 04.06.2025-ci il tarixli, 3-28-28/2-154/2025 nömrəli məktubumuzla ətraflı məlumat verilmişdir.

Bildiririk ki, bu günə kimi Həsənov Röyal Fazil oğlu barəsində ilkin komisyon məhkəmə-tibb ekspertizasının keçirildiyi 30.09.2024-cü il tarixdən bu günədək əlavə və ya təkrar ekspetizanın təyini ilə əlaqədar Birliyə qərar və ya qərardad daxil olmamışdır.

Verilmiş ilkin "Ekspert rəyi"nə əsasən R.F.Həsənovun məcburi vəziyyətdə olmasını və obyektiv olaraq reabilitasiya müalicəsinin davam etdirilməsini nəzərə alaraq ekspertlər komissiyası onun sərbəst şəkildə məhkəmə proseslərində iştirakını və cəzaçəkmə müəssisəsində saxlanılmasını məqsədəuyğun hesab etməmişdir.

Lakin R.F.Həsənovun vəziyyəti stabilləşdikdən sonra bu məsələyə Məhkəmə tərəfindən əlavə məhkəmə-tibb ekspertizasının təyin edilməsi ilə yenidən baxılıb, hazırkı sağlamlıq durumu qiymətləndirilə bilər.

Əlavə olaraq bildiririk ki, Məhkəmə tərəfindən R.F.Həsənov barəsində təyin ediləcək əlavə və ya təkrar məhkəmə-tibb ekspertizası mövcud əsasnamə və normativ sənədlər əsasında aparılaraq, şəxsin hazırkı sağlamlıq durumu ekspertlər tərəfindən yenə də obyektiv qiymətləndiriləcək və buna dair elmi əsaslı "Ekspert rəyi" tərtib olunub, aidiyyəti üzrə göndəriləcəkdir.

**Baş direktor:** **professor Ədalət Həsənov**

Bütün bu faktlar göstərir ki, hakim Günay Aşurova təqsirləndirilən şəxsdən və ya onun yaxınlarından asılı vəziyyətə düşərək qanunları pozmuş, Azərbaycan Respublikası CM-nin 308-ci maddəsində nəzərdə tutulan korrupsiya xarakterli cinayət əməlinə yol vermişdir. Onun hərəkətləri həmçinin Azərbaycan Respublikası CPM-in 28-ci maddəsində təsbit olunmuş "ağlabatan müddətdə və ədalətli araşdırma" prinsipini kobud şəkildə pozur.

Hətta Şəki Ağır Cinayətlər Məhkəməsinin sədri Rafail Əliyev də mənim müraciətlərimə formal cavab məktubları göndərmiş, işin mahiyyətinə varmamış və süründürməçilik hallarını görməzdən gəlmişdir.

Sizdən çox-çox xahiş edirəm, Şəki Ağır Cinayətlər Məhkəməsinin hakimi Günay Aşurovanın cinayət işinin gedişini qəsdən uzatması, təqsirləndirilən şəxsin müdafiəsinə şərait yaratması və korrupsiya əməllərinə yol verməsi faktları üzrə xüsusi araşdırma aparılaraq hüquqi qiymət verilməsi təmin edilsin, iş üzrə təkrar məhkəmə-tibbi ekspertizasının təxirə salınmadan keçirilməsi təmin edilsin, təqsirləndirilən Röyal Həsənovun əsassız "xəstəlik" bəhanələri ilə məhkəmə prosesinin uzadılmasının qarşısının alınması və məhkəmə icraatının qanuni və operativ qaydada aparılması təmin edilsin.

Məhkəmə-Hüquq Şurası tərəfindən hakim Günay Aşurovanın barəsində intizam məsuliyyəti və hakimlikdən kənarlaşdırılması məsələsinə baxılmasını xahiş edirəm.

Müraciətimə Məhkəmə Tibbi Ekspertiza və Patoloji Anatomiya Birliyinin 05.07.2025-ci il tarixli cavab məktubunun və Şəki Ağır Cinayətlər Məhkəməsinin sədri R. Əliyevin cavab məktubunun surətlərini əlavə edirəm".

**Hazırladı: Jalə FAMİLQIZI**

**Redaksiyadan: Yazıda adları qeyd olunan şəxslərin və qurumların mövqeyini dərc etməyə hazırıq.**

# Həyat yoldaşı şəhid oldu, oğlu isə qazi...

## Daşkəsən sakini 30 ildir mərhum həyat yoldaşına şəhidlik statusu ala bilmir

Daşkəsən şəhəri, İsmət Qayıbov küçəsi, ev 30, mənzil 6-da yaşayan Qarabağ qazisinin anası Vəliyeva Rahilə Qoçəli qızı tərəfindən "Hürriyyət"in redaksiyasına şikayət məktubu daxil olub. Qəzetimiz vasitəsilə Prezident İlham Əliyevə, Müdafiə naziri Zakir Həsənova, Ali Məhkəmənin sədri İnam Kərimova və Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin rəisi Mürsəl İbrahimova müraciət edən şikayətçinin məktubunu olduğu kimi dərc edirik:




**"Çox hörmətli Müzəffər Prezidentimiz!**

2-ci Qarabağ Müharibəsi dövründə mənim gözümün ağı-qarası yeganə övladım - oğlum Vüsal könüllü olaraq döyüşə gedəndə, mən ona çox yavlardım ki, döyüşə getməsin. Onu da öldürsələr, təsəlli tapmam üçün onsuz da ona da şəhid adı verməyəcəklər.

Oğluma dəfələrlə dedim ki, 1-ci Qarabağ Müharibəsi dövründə sənin atan könüllü gedib, Vətən uğrunda həlak olub, ancaq ona şəhid adını belə, vermirlər. Sən heç olmazsa, getmə, sağ qal, mənim ümid və həyatımsan. Əlavə etdim ki, onsuz da bu ölkədə vəzifəli şəxslərin əksəriyyəti - nə özləri, nə uşaqları, nə də əzizləri müharibəyə nəinki getmir, hətta erməni işğalçılarına qarşı vuruşanlara düşmən gözü il baxırlar. Onlar üçün Vətənini sevən insan əsil düşmənləridir, onlara ən qatı düşmən gözü ilə baxırlar.

Ancaq oğlum mənə qulaq asmadı və nəticədə, 2-ci Qarabağ Müharibəsi dövründə aldığı yaralardan hazırda ömürlük əlil olmuşdur. Şükür Allaha ki, mənim dualarımı eşidib, onu mənim üçün heç olmazsa, sağ saxladı.

İndi ailəlikcə aclıq, bu günümüzə və sabahımıza inamsızlıq, səfalət və borc içərisində yaşayırıq.

Mərhum həyat yoldaşım və oğlum erməni işğalçılarına güllə atdıqlarına görə ölkəmizin böyük vəzifəli şəxsləri mənə və oğluma açıq-açığına zülm edirlər.

Allaha hər gün yalvarıram ki, mənim şikayətlərimə düzgün baxmayanların özləri də, uşaqları da, bütün əzizləri də məndən və mənim ailəmdan daha çox pis günə düşsünlər. Məzlumun ahı tez tutur! Dualarım yerinə yetəcək, mənə və ailəmə zülm etmiş və zülm edən şəxslər dua etdiyim hallara düşəndə, həmin vaxt hər şeyi başa düşərlər. Zülm yerdə qalmır.

Allahdan diləyirəm ki, onları heç bağışlamasın - nə bu, nə də o biri dünyada. İnşallah, mənim dualarım məzlum insanın duaları olduğundan yerdə qalmaz.

Sizə yüzlərlə şikayət yazaraq bildirmişdim ki, Azərbaycan Respublikasının Səfərbərlik Və Hərbi Xidmətə Çağırış Üzrə Dövlət Xidmətində və bizim mən rast gəldiyim məhkəmələrdə şəhid ailəsinin heç bir şikayətinə qətiyyən düzgün baxılmır. Azərbaycan Respublikasının Səfərbərlik Və Hərbi Xidmətə Çağırış Üzrə Dövlət Xidmətinin rəhbərliyi və bəzi hakimlər isə erməni işğalçılarına qarşı döyüşdüklərinə görə, şəhid ailəsinə ancaq açıq-açığına zülm edirlər.

Ya ölkənin bizim kimi məzlum əhalisinə daim dəsmal götürüb hönkür-hönkür ağlamaq lazımdır, ya da daha düzgün olar ki, Siz bu "möhtərəm"lərin hamısını dəyişib, yerlərinə öz vəzifələrinə heç olmazsa, millətə yazığı gəlib, hərdən-birdən düzgün qərarlar qəbul edə biləcək şəxsləri təyin edəsiniz.

Bu dəfə də Sizə şikayət ərizəmi yazıram. Bilirəm, Azərbaycan xalqından zəhləsi gedənlər imkan verməyəcəklər ki, şikayətim Sizə çatsın. Görünür, bundan sonra müxtəlif xarici kanallara və beynəlxalq ictimaiyyətə müraciət etməliyəm ki, səsim Sizə çatsın.

Mən Sizə və müxtəlif yüksək instansiyalı ünvanlara mindən artıq şikayət-müraciətlər edərək bildirmişəm ki, "mərhum həyat yoldaşım, 16 aprel 1967-ci il tarixdə Daşkəsən şəhərində anadan olmuş Vəliyev Rəhim Əli oğlu Daşkəsən rayon Hərbi Komissarlığı tərəfindən hərbi xidmətə çağırılaraq, 03 sentyabr 1993-cü il tarixdə Azərbaycan Respublikasının Müdafiə Nazirliyinin 171 saylı hərbi hissəsinin tərkibində erməni işğalçılarına qarşı döyüşən 861 saylı hərbi hissədə (Daşkəsən özünümüdafiə taborunda) hərbi xidmət keçərkən Azərbaycan Respublikasının ərazi bütövlüyü uğrunda erməni işğalçılarına qarşı gedən döyüşlər zamanı öz hərbi xidməti borcunu yerinə yetirərkən həlak olmuşdur.

«Şəhid adının əbədiləşdirilməsi və şəhid ailələrinə edilən güzəştlərin tətbiqi qaydalarının" təsdiq olunması haqqında Azərbaycan Respublikası Nazirlər Kabinetinin 15 yanvar 1994-cü il tarixli 10 saylı qərarınınnın 1.2.5-ci bəndinə əsasən, "Azərbaycan Respublikasının ərazi bütövlüyü uğrunda aparılan hərbi əməliyyatlar zamanı həlak olmuş hərbi qulluqçular şəhid hesab olunurlar. 2.1-ci bəndinə görə, şəhidin (2.1.1) arvadı onun ailə üzvüdür. Həmin qərarın 4.1-ci bəndinə əsasən şəhid və şəhid ailəsi statusunun verilməsi məsələsinə maraqlı şəxsin müraciəti və dövlət orqanlarının və ya müvafiq hərbi hissənin vəsatəti ilə baxılır. Şəxsin şəhid hesab edilməsi ölüm haqqında şəhadətnaməsi və hərbi hissənin arayışı əsasında təsdiq olunur.

Yüzlərlə dəfə Azərbaycan Respublikasının Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin rəisi cənab İbrahimov Mürsəl Qorxmaz oğluna həyat yoldaşıma şəhid adının verilməsi üçün müraciət etmiş və Azərbaycan Respublikasının Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinə 17 avqust 2018-ci il tarixdə Daşkəsən rayon Vətəndaşlıq Vəziyyəti Aktları Qeydiyyatı Şöbəsi tərəfindən şəhidin adına verilmiş AZ-I № 944051 saylı ölüm haqqında Şəhadətnamənin, Vəliyev Rəhim Əli oğlu haqqında olan 04 iyun 1994-cü il tarixli 1141 və 13 noyabr 1996-cı il tarixli 4/492 saylı arayışların və digər sənədlərin kserosurətlərini dəfələrlə təqdim etmişəm.

Müxtəlif ünvanlara, o cümlədən Sizə də yüzlərlə dəfə təqdim etdiyim Azərbaycan Respublikasının Müdafiə Nazirliyinin 171 saylı hərbi hissəsinin həmin dövrdəki komandiri, polkovnik M.H. Həmzəyev tərəfindən verilmiş 13 noyabr 1996-cı il tarixli 4/492 saylı arayışdan və Daşkəsən rayon Hərbi Komissarlığının həmin dövrdəki hərbi komissarı, mayor İmanov A.M. tərəfindən verilmiş 04 iyun 1994-cü il tarixli 1141 saylı arayışdan da çox aydın görünür ki, 16 aprel 1967-ci il tarixdə Daşkəsən şəhərində anadan olmuş Vəliyev Rəhim Əli oğlu 03 sentyabr 1993-cü il tarixdə Azərbaycan Respublikasının Müdafiə Nazirliyinin 171 saylı hərbi hissəsində hərbi xidmət keçərkən öz xidməti borcunu yerinə yetirərkən Daşkəsən rayonu ərazisində həlak olmuşdur.

Bu halı, yəni hərbi xidmət keçərkən öz xidməti borcunu yerinə yetirərkən Daşkəsən rayonu ərazisində həlak olması faktını şəhid Vəliyev Rəhim Əli oğlu ilə birgə hərbi xidmətdə olmuş sabiq hərbi qulluqçular - Mirbabayev Vahid Nuru oğlu, Həşimov Mahir Yasin oğlu, Musayev Əli Vilayət oğlu, Həsənov Ehtibar Aydın oğlu və Əliyev Hafiz Telman oğlu özləri təqdim etdikləri izahatlarında tamamilə təsdiq edirlər. Bu halı nəinki onlar, şəhidimizlə birlikdə xidmət etmiş digər həmxidmətliləri də təsdiq edə bilərlər.

Odur ki, tərəfimizdən dəfələrlə Daşkəsən rayon Hərbi Komissarlığı tərəfindən hərbi xidmətə çağırılaraq, 03 sentyabr 1993-cü il tarixdə Azərbaycan Respublikasının Müdafiə Nazirliyinin 171 saylı hərbi hissəsində hərbi xidmət keçərkən Azərbaycan Respublikasının ərazi bütövlüyü uğrunda erməni işğalçılarına qarşı gedən döyüşlər zamanı öz hərbi xidməti borcunu yerinə yetirərkən həlak olmuş Vəliyev Rəhim Əli oğlunun adının şəhidlər siyahısına salınması üçün Azərbaycan Respublikasının Müdafiə Nazirliyinə və Azərbaycan Respublikasının Səfərbərlik və Hərbi Xidmətə Çağiriş üzrə Dövlət Xidmətinə müraciət etmiş və ora dəfələrlə müvafiq sənədləri təqdim etmişik.

Lakin Azərbaycan Respublikasının Müdafiə Nazirliyindən verilən arayışda Vəliyev Rəhim Əli oğlunun Müdafiə Nazirliyinin 861 saylı hərbi hissəsində xidmət etdiyi və məzuniyyətdə olarkən, 03 sentyabr 1993-cü il tarixdə yol hərəkəti qəzası zamanı Daşkəsən rayonu ərazisində həlak olduğunun göstərildiyini bildirirlər.

Azərbaycan Respublikasının Səfərbərlik və Hərbi Xidmətə Çağiriş üzrə Dövlət Xidmətinə izah edə bilmirəm ki, Azərbaycan Respublikasının Müdafiə Nazirliyindən verilmiş arayışın məzmunu, yəni Vəliyev Rəhim Əli oğlunun Azərbaycan Respublikasının Müdafiə Nazirliyinin 861 saylı hərbi hissəsində xidmət edərkən məzuniyyətdə olarkən, 03 sentyabr 1993-cü il tarixdə yol hərəkəti qəzası zamanı Daşkəsən rayonu ərazisində həlak olması arayışı məzmunca tamamilə yanlışdır. Çünki 03 sentyabr 1993-cü il tarixdə şəhid Vəliyev Rəhim Əli oğlu məzuniyyətdə olmamışdır.

Belə ki, şəhid Vəliyev Rəhim Əli oğlu özü könüllü olaraq Daşkəsən rayon Hərbi Komissarlığı vasitəsi ilə hərbi xidmətə çağırılaraq (Səfərbər olunaraq), Azərbaycan Respublikasının Müdafiə Nazirliyinin 171 saylı hərbi hissəsinin tərkibində erməni işğalçılarına qarşı döyüşən 861 saylı hərbi hissədə (Daşkəsən özünümüdafiə taborunda) tağım komandiri vəzifəsində gizir hərbi rütbəsində xidmət edən 08 noyabr 1962-ci il tarixdə Daşkəsən rayonun Daşkəsən şəhərində anadan olmuş, 16 avqust 2022-ci il tarixdə "Beyin ödəmi" xəstəliyindən vəfat etmiş Baqiri Maarif Məlik oğlu 03 sentyabr 1993-cü il tarixdə səfərbərliklə alınaraq, hərbi hissənin istifadəsinə verilərək, gizir Baqiri Maarif Məlik oğluna təhkim olunmuş "VAZ-2107" markalı avtomaşında, qabaq sərnişin yerindəqabaq oturacaqda özü könüllü olaraq Daşkəsən rayon Hərbi Komissarlığı vasitəsi ilə hərbi xidmətə çağırılaraq (Səfərbər olunaraq), Azərbaycan Respublikasının Müdafiə Nazirliyinin 171 saylı hərbi hissəsinin tərkibində erməni işğalçılarına qarşı döyüşən 861 saylı hərbi hissədə (Daşkəsən özünümüdafiə taborunda) sıravi əsgər hərbi rütbəsində atıcı vəzifəsində xidmət edən, 10 aprel 1971-ci il tarixdə Daşkəsən rayonun Daşkəsən şəhərində anadan olmuş, 20 fevral 2006-cı il tarixdə "Xərçəngiz Loksikasiyası" xəstəliyindən Bakı şəhərində vəfat etmiş Zakirov Etibar Zakir oğlu, avtomaşının arxa oturacağında isə Daşkəsən rayon Hərbi Komissarlığı tərəfindən hərbi xidmətə çağırılaraq, Azərbaycan Respublikasının Müdafiə Nazirliyinin 171 saylı hərbi hissəsinin tərkibində erməni işğalçılarına qarşı döyüşən 861 saylı hərbi hissədə (Daşkəsən özünümüdafiə taborunda) sıravi əsgər hərbi rütbəsində kəşfiyyatçı-pulemyotçu vəzifəsində xidmət edən Vəliyev Rəhim Əli oğlu olmaqla, təqribən saat 14-15 radələrində Müdafiə Nazirliyinin 171 saylı hərbi hissəsinin tərkibində olan 861 saylı (Daşkəsən rayon özünümüdafiə taborunun) hərbi hissənin Daşkəsən şəhərində olan məntəqəsindən Daşkəsən rayon özünümüdafiə taborunun Xoşbulaq məntəqəsinə, oradan isə Kobalt qəsəbəsi yaxınlığında yerləşən döyüş mövqeyinə hərbi sursat-əsasən dəmir sink yeşiklərdə olan AKM avtomat silahları üçün olan 7,62 mm güllələri və digər hərbi sursat və əşyaları apararkən, Daşkəsən rayonunun Yuxarı Daşkəsən qəsəbəsi ərazi vahidliyinin ərazisində avtomaşın dağ ətəyi yoldan dərəyə yuvarlanaraq aşmış və nəticədə, sıravi əsgər, kəşfiyyatçı-pulemyotçu Vəliyev Rəhim Əli oğlu "açıq küt baş beyin travması" alaraq, hadisə yerindəcə həlak olmuşdur.

Digər iki hərbi qulluqçular - Baqiri Maarif Məlik oğlu və Zakirov Etibar Zakir oğlu isə müxtəlif dərəcəli bədən xəsarətləri almışlar. Soradan həmin müxtəlif dərəcəli bədən xəsarətləri almış iki hərbi qulluqçu isə aldıqları bədən xəsarətlərindən Daşkəsən rayon Mərkəzi Xəstəxanasında bir müddət müalicələr almışlar.

Azərbaycan Respublikasının Müdafiə Nazirliyinin 171 saylı hərbi hissəsinin tərkibində olan 861 saylı (Daşkəsən rayon özünümüdafiə taborunun) hərbi hissənin hərbi qulluçuları öz hərbi xidməti borcunu yerinə yetirərkən həlak olmuş kəşfiyyatçı-pulemyotçu, sıravi əsgər Vəliyev Rəhim Əli oğlunun meyidini Gəncə şəhərinə gətirərək, onu geniş ictimayyətin iştirakı ilə Gəncə şəhərinin yaxınlığındakı Şəhidlər Xiyabanında şəhid kimi dəfn etmişlər".

*(Ardı var)*

**Hazırladı: KƏNAN**

# Siyəzən sakinləri icra başçısının fəaliyyətindən narazıdır

**Siyəzən rayon, Şamil Baxşıyev küçəsinin bir qrup sakini tərəfindən "Hürriyyət"in redaksiyasına şikayət məktubu daxil olub. Şikayətçilər qəzetimiz vasitəsilə Prezidenti İlham Əliyevə, Birinci vitse-prezident Mehriban Əliyevaya, İnsan Hüquqları üzrə müvəkkil Səbinə Əliyevaya, Baş nazir Əli Əsədova, Baş prokuror Kamran Əliyevə və Milli Məclisin sədri Sahibə Qafarovaya müraciət ünvanlayıblar:**




## Bir qrup sakin tərəfindən ölkə rəhbərliyinə müraciət...

**"Cənab Prezidnet!**

**Hörmətli xanımlar və cənablar!**

Biz, Siyəzən rayonu, Şamil Baxşıyev küçəsinin sakinləri olaraq, artıq təngə gəlmişik. Hara, kimə şikayət edəcəyimizi bilmirik. Açıq şəkildə şikayətimizə baxılmır...

Azərbaycan Respublikası Konstitusiyasnın 57-ci maddəsinin 1 və 2-ci bəndlərini rəhbər tutaraq, Sizlərə şikayətimizi media vasitəsilə bildiririk. Şikayətimizin məzmunu əsasan 3 hissədən ibarətdir və sözügedən problemlər bir vətəndaş və rayon sakini kimi, bizim üçün mülki təhlükəsizlik və sanitar epitemoloji baxımdan mühüm əhəmiyyət kəsb edir.

Xatırladaq ki, biz öz problemlərimiz barədə iki dəfə Siyəzən Rayon İcra Hakimiyyətinə kollektiv şəkildə müraciət ünvanlamışıq. Lakin məsələ ilə bağlı heç bir tədbir görülməmişdir. Yəni vətəndaşların problemləri ya bilərəkdən, ya da məsuliyyətsizlikdən gözardı edilməkdədir.

İlk növbədə məlumat üçün Sizə bildiririk ki, bir neçə ay bundan qabaq güclü yağış yağması ilə əlaqədar olaraq, Siyəzən rayonunda çox ciddi fəsadlar, dağıntılar meydana gəlmişdir. Bəzi küçə və məhəllələr fərqli şəkillərdə zərər görmüş və vətəndaşların mülkiyyətinə ziyan dəymişdir. Bu təbii fəlakət bizim yaşadığımız Şamil Baxşıyev küçəsindən də yan keçməmişdir. Belə ki, yağan güclü yağış zamanı bizim küçədə yerləşən evlər suyun altında qalmış və əmlaklarımız mülki baxımdan zərərlə üzləşmişdir.

Fəlakətdən sonra Siyəzən Rayon İcra Hakimiyyəti rəhbərliyi bizim küçəyə baxış keçirdi və baş verən fəsadların aradan qaldırılması və gələcəkdə baş verə biləcək fəsadlara qarşı tədbir görüləcəyi barədə bizi əmin etsələr də, məsələ ilə bağlı heç bir təbir görülmədi. Qeyd edək ki, sel sularına qarşı bizim yaşadığımız ərazidə ən azı iki ədəd minlik "patron turba" basdırılmalıdır ki, gələcəkdə güclü yağış zamanı əvvəlki kimi yağış suları sakinlərin mülkünə zərər vurmasın, həyətyanı sahələr su altında qalmasın. Bu, çox mühüm məsələdir, bu məsələyə laqeyd yanaşmaq vətəndaşların mülkiyyətinə bilərəkdən ziyan vurmağa şərait və zəmin yaratmaqdır.

**Cənab Prezidnet!**

Hörmətli xanımlar və cənablar!

Bundan əlavə, ərazidə məişət tullantılarının boşaldılması üçün zibil qutusu konteyneri yoxdur. Sakinlər tullantıları boşaltmaq üçün öz şəxsi maşınlarından isitfadə edirlər. Qalan sakinlər də tullantıları çox uzaq məsafələrə boşaltmış olur. Əraziyə zibil konteyneri təyin edilməsi şərtdir. Çünkü ərazidə pərakəndə boşaldılmış məişət tullantıları antisanitar vəziyyət yaradır, bu da biz sakinlərin sağlamlığı üçün təhlükə yaradır.

Xatırladaq ki, Azərbaycan Respublikası Konstitusiyasının 39-cu maddəsinin 1-ci bəndinə əsasən, "Hər kəsin sağlam ətraf mühütdə yaşamaq hüququ vardır". Bunun təşkil edilməsi və nəzarəti Siyəzən Rayon İcra Hakimiyyətinin üzərinə düşür. Biz, bir vətəndaş kimi, tullnatılar üçün boşuna ödəniş edirik, çünki zibilin boşaldılması və daşınması üçün heç bir tədbir görülmür.

Onu da qeyd edək ki, bizim küçəyə asfalt örtüyü döşənməsi gərəkir. Yerləşdiyimiz ərazinin hər tərəfinə asfalt döşəndiyi halda, bizi sanki təcrid etmişlər kimi, 300 mtr məsafəyə asfalt örtüyü döşənməmişdir. Bunun adını nə qoymaq olar, biz deməyə söz tapa bilmirik. İş icra edildiyi zaman tam şəkildə icra edilməlidir. Buna da yenə Siyəzən Rayon İcra Hakimiyyəti nəzarət edir. Bu, açıq şəkildə qanuna ziddir və vətəndaşlara qarşı hörmətsizlik hesab olunur.

Yerli İcra Hakimiyyəti Haqqında Əsasnamənin 3.7.2-ci bəndinə əsasən, Yerli İcra Hakimiyyəti orqanı müvafiq ərazidə sanitar-epidemioloji şəraitin yaxşılaşdırılmasının təmin edilməsində iştirak edir. Həmin qanunun 3.7.3-ci bəndinə əsasən, Yerli İcra Hakimiyyəti orqanı məişət tullantılarının yığılması daşınması zərərsizləşdirilməsi üçün tədbir görülür. Həmin qanunun 3.9.10-cu bəndinə əsasən, Yerli İcra Hakimiyyəti orqanı yaşayış məntəqələri ərazilərinin abadlaşdırılmasını təşkil edir. 4.9.14-cü bəndinə əsasən, Yerli İcra Hakmiyyəti orqanı yaşayış məntəqələrində məhəllə ərazilərinin abadlaşdırılması üçün ünvanlı abadlaşdırma proqramlarını və müvafiq ərazilərin kompleks abadlaşdırılması proqramlarını hazırlayır və həyata keçirir. Həmin qanunun 4.9.17-ci bəndinə əsasən, Yerli İcra Hakimiyyəti oqanı müvafiq ərazidə məişət tullantılarının yığılması üçün konteyner meydançalarının yerləşdirilməsi və yenidən qurulması üzrə ünvanlı proqramları təsdiq etmək və həmin proqramların icrasına nəzarəti həyata keçirir.

Sonda qeyd etmək istəyirik ki, Yerli İcra Hakimiyyəti Haqqında Əsasnamənin 5.1.8-ci bəndinə əsasən, "Vətəndaşların müraciətlərinə baxılması qaydası haqqında" Azərbaycan Respublikasının Qanunu ilə müəyyən edilmiş qaydada vətəndaşların qəbulunu həyata keçirmək, onların ərizə, şikayət və təkliflərinə baxmaq, lazımi tədbirlər görmək və nəticəsi barədə vətəndaşlara məlumat vermək hüququ və vəzifəsi olsa da, bu vəzifə icra edilməmişdir, etdiyimiz yazılı müraciətlərə baxılmamış və heç bir tədbir görülməmişdir.

Bütün qeyd olunanlara əsasən, Sizdən xahiş edirik ki, problemlərimizin həlli üçün, başda Siyəzən Rayon İcra Hakimiyyəti olmaqla, lazımı orqanlara ciddi göstəriş verəsiniz".

**Jalə FAMİLQIZI**

**Redaksiyadan: Yazıda adı qeyd olunan qurumun mövqeyini dərc etməyə hazırıq**

# Qarabağ qazisi çarəsiz durumda

## "Heç kəsdən pul istəmirəm, dövlətimdən iş tələb edirəm"

**Daşkəsən rayon sakini Mürsəlov Babək Mövsüm oğlu tərəfindən Hurriyyet.az saytının redaksiyasına şikayət məktubu daxil olub. Şikayətçi işsizlikdən əziyyət çəkdiyini, məhz veteran olduğu üçün heç kəsin ona iş vermədiyini iddia edir:**






"Mən, Mürsəlov Babək Mövsüm oğlu, yazaraq xahiş edirəm ki, problemimi işıqlandırasınız.

Bildirim ki, hərbi xidmətdə olmuşam. "Maxe" işləmişəm, sonradan öz istəyimlə işdən azad olmuşam.

44 günlük Vətən Müharibəsində iştirak etmişəm.

3-4 ay bundan qabaq Gəncə-Daşkəsən Regional Məşğulluq İdarəsinin filialından ehtiyatda olan maxelərin yığımına başladılar. Sənədlərimi yığıb, lazımi qaydada mən də göndərdim. Bakıya dəvət etdilər, "1 ay müddətində işə çıxacaqsınız", - dedilər. Amma 4 aydır ki, çağıran yoxdur.

Müdafiə Nazirliyinin qaynar xəttindən isə bildirirlər ki, bizim bu haqda məlumatımız yoxdur.

44 günlük Vətən Müharibəsi zamanı özüm Daşkəsən Hərbi Komissarlığına yaxınlaşıb, davadalaşla müharibəyə getmişəm. Üç qardaş üçümüz də müharibədə iştirak etmişik. Müharibə başa çatana yaxın Müdafiə Nazirliyi tərəfindən xidmətə uyğunsuzluqla tərxis olunmuşam.

45 nəfəri 3 ay bundan qabaq "Maxe" kimi Gəncə-Daşkəsən Regional Məşğulluq İdarəsinə dəvət etdilər. Amma iş vermədilər. Hərbi Komissarlıqdan keçirdilər. Mən bunu haqszılıq kimi qiymətləndirirəm. Heç kəsdən pul istəmirik. Özümü və ailəmi dolandırmaq üçün dövlətimdən iş tələb edirəm".

**Jalə FAMİLQIZI**

**Redaksiyadan: Aidiyyəti qurumların mövqeyini dərc etməyə hazırıq.**

# Toylarımız

**Toy ciddi el yığnağıdır. Toyu qorumaq, varsalmaq (zənginləşdirmək) gərəkdir, zibilləmək yox.**

**Bu gün toylarımız - yeni ailə qurulması adıyla ən əziz gün əvəzinə, görməmişlik, israfçılıq, səs-küy işgəncəsi, yüngüllərin yarıçılpaqlığının topluma "mədəniyyət" kimi sırınması, toyxana sahibinin qonaqları bir-birilə uzlaşmayan, gərəksiz qidalar yeməyə zorlaması, yaxşı toy adətlərinin unutdurulması və yerində məntiqsiz, mənasız davranışlar - bütün bunların fonunda nəmər adına şişirdilmiş toy xərcinin qonaqlara "məcburi" ödətdirilməsi, qanun-qayda, əxlaq, adət saymayan, yarıbayarı zəhmətsiz gəlir vasitəsi olan toyxanalar pis vərdişlərinin yaranması yerinə çevrilib. Halbuki, toy ciddi el yığnağı olmaqla, həyat eşqimizin, arzularımızın qovuşduğu, oluşduğu yerdir.**





**Məmmədxan ƏZİZXANLI**
**Keçmiş prokuror**

Ən gərəkli, səmimi el adəti olmalı olan toyda sadalanan pisliklər ucbatından toy sevincimizi tam yaşaya bilmirik. Buna son qoyulmalı, pis toy gələnəyi qondarma işbazların əlindən alınmalı, öz keçmiş təyinatına-özəlliyinə qaytarılmalıdır. Bunun üçün toy süfrəsi yalnız sifarişçinin - toy sahibinin istəklərinə uyğun döşənməli, dünyəvi olmayan, əndərbadi, mənasız tamaşalar, əxlaqımıza yad, hər cür dini, cəhalət göstəriləri yığışdırılmalıdır, heç bir davranış normal həddini aşmamalı, bütün bunlara aparıcı - Toybəyi nəzarət etməlidir.

Toybəyi el adətlərimizi bilən, el arasında hörmətli, ötkəm, xoş davranışlı, obyektiv, təşkilatçılıqda yaradıcı qabiliyyətli, hamını yola verə bilən bacarıqlı birisi seçilməli, sonda el adətincə ona hər hansı formadasa toy xələti, nəməri verilməlidir.

İnsan həyatının ən əhəmiyyətli, dönüş anlarından biri də yeni ailə qurulmasıdır. Yeni ailə qurulmasının şadlıqla qeyd olunması məntiqidir. Toylar yüz illərdən süzülüb gələn otruşmuş qaydada aparılmalıdır. Toya hər hansı əlavə onun məzmununa uyğun gəlməlidir, içəriyinə, yeni mahiyyətinə zidd olmamalıdır, ardıcıllığını pozmamalı, məntiqi tamamlamalıdır. Toya, onu varsalladan ştrixlər, göstərilər əlavə oluna bilər, əks məzmunlular isə, yox. Klassik məzmununa uyğunsuz fraqmentlər toyu özəlliyindən uzaqlaşdırır, kimlərinsə maddi, siyasi, hətta pozucu maraqlarına xidmət elədiyindən buna yol verilməməlidir.

Toyda davranışlar öz həddini aşmamalı, bütün coşquyla paralel təmkin saxlanılmalıdır, yoxsa olayın şiti çıxar, toyun gözəlliyi itər. Toy, yalnız evlənənlər üçün çalına bilər, başqaları üçün yox.

İsrafçılıq - ən çox toyxana sahiblərinə sərf edir, çünki belədə, onlar qida adına zay, soyuq qidaları süfrəyə təkrar, gərəksiz qidalarını işə verməklə daha çox pul qazana bilirlər. Əgər şadlıq saraylarının sahibləri gərəkli xidmətləriylə yanaşı, belə yaramazlıqları etmədən halal pul qazansaydılar, mən onları qınamazdım. İsrafçılığın qarşısının alınması birbaşa toy sahibinin marağında olmaqla onun görəvidir, vəzifəsidir, bununla da o, həm maddi, həm mənəvi pozğunluğun qarşısını ala bilər, həm də toy xərcini azaldar, çünki sifarişçi odur, onun da sözü keçməlidir, yoxsa öz boyat qidalarını bizə soxuşdurmağa çalışan xidmətçilərin yox.

Yemək, həm də bərəkətdir. A kişilər, harda görünüb ki, toyda adı milli mətbəximizdə olmayan, mənşəyi bilinməyən, şübhəli yeməklər verilsin? Toyda verilməli olan milli yeməklərimiz - plovdur, çörəkdir, bozbaşdır, lülə və tikə kababılardır, göyərtidir, içkilərdir, çaydır, qalanları, gərəksidir, pul tələsidir. Plovun birinci yox, axırda verilməsi sanki toyu hörmətdən salmaq üçün düşünülüb. Çünki qabaqca o qədər gərəksiz yeməklər verilir ki, axırda plovu yeməyə nə mədədə yer, nə həvəs, nədə də plovda dad qalır. Mən plovu birinci verdirmişəm, qismət olsa yenə birinci verdirəcəyəm.

Toya gələn qonaqların hamısı musiqi adına salona ifraz edilən, qulaqlarımızı zorlayan, səs terrorundan əzab çəkir, ağız deyəni qulaq eşitmir, əhvallaşmaq üçün foyeyə çıxmalı olurlar, halbuki onlar burada musiqi dinləməklə, yeməklə, əylənməklə, oynamaqla istirahət etməliydilər. Səs-küyün marağında olanlar, toyu öz səviyyəsizliklərinə endirən qonaqlar, yarımçıq musiqiçi və müğənnilərdir. Çünki belədə yaranan tozanağda onların səhvi, xaric oxumaları ört-basdır olunur, bilinmir. Sanki, bütün qonaqlar səs gumbuldadan beş-üç eloktrosəsin əlində beş-altı saatlıq girovluqdadırlar.

Mən, 01.09.2025-ci il tarixdə "Sapfir"də toyda, çalançılardan səsin yarıbayarı azaldılmasını istədim, əksinə ikiqat artırdılar... Abrına qısılan qonaqlar da susur, işgəncəyə dözürlər. Toyun gedişi buraxılıb səs guppuldadanlarla, oynamaq adıyla atılıb, düşən uşaq-muşaqların ixtiyarına. Toy sahibi isə, görünür, toyun nə keçməsində yox, pulun nə qədər yığılacağında maraqlıdır.

Virtuoz, vokal səsli müğənni Şahin İsmayılov toy biabırçılığının bir səbəbini də toyun, evin kişisinin istədiyi və etməli olduğu kimi yox, kişinin, evin xanımının və uşaqlarının istəklərinə uyub indiki halda, kökümüzdən uzaq düşməklə aparıldığına razılaşmağında gördüyünü dedi. Məncə, o, haqlıdır. Axı, uşaq, toyu edən deyil, toyu edilləndir. Toya dəvət olunanların mütləq əksəriyyəti toy sahibi atanın, ananın qohumları, dostları, tanışlarıdır, deməк toy da bir neçə tanışı olan gənclərin istəyi də nəzərə alınmaqla, əsasən böyüklərin zövqünə, istəyinə uyğun aparılmalıdır, amma indi bizim toylarda əksinədir. Ona görə də toyun ləzzəti qaçıb, toy bəzi qarmaqarışıq elmlər doktorları kimi, içərikdən uzaq, gubbultulu, tozanaqlı bir yığnaq olub.

Bəzi gəlinlər də daxil olmaqla, abrı yaddan çıxıb evdə qalan qadınlar üçün toy ən yaxşı fürsət yeridir - gecə alt paltarında, şəffaf, dar-düdük geyinənlər öz həyasızlıq dərəcəsinə uyğun olaraq hədlərini o qədər aşırlar ki, hətta abırlı geyinənlərə yuxarıdan aşağı baxırlar... Dağıl a dünya. Bəylə gəlin yalnız otaqda, yad gözdən uzaq, ancaq özlərinə aid intim ilişkilərin hələlik bir qismini - öpüşmədi, qucaqlamadı, suvaşmadı, qucaqda fırlatmadı, bir-birini yedirtmədi və sair kimi mübhəm, yad gözdən uzaq olmalı olan istəklərini görməmişcəsinə, qonaqlarla "bölüşərək" icra edirlər... Bununla da sanki, qonaqları öz etdiklərinə şərik etmiş olurlar, axı bu ayıbdır. Bəzilərinin açıq-saçıqlığı qız-gəlinlərimizə örnək olmamalıdır. Unutmamalıyıq, insanlığın ən böyük dəyərlərindən biri də insanın ayıb, abır sayılan yerlərini paltarla örtməkdir, açmaq deyil. Baxmayaraq, hamımız vəhşilikdən gəlmişik... ancaq, abırlı geyinmək- reallığının diktə etdiyi dünyəvi davranışdır, sosial sifarişdir, mədəniyyətdir. Axı biz, artıq min illərdir Türk Törəsilə yaşayan, "Üzündə yad izi var, sənə kim baxdı yarım" deyə, çağlayan həssas, tək ailəli, qeyrətli xalqıq... Pislikləri kəsib ataq, özümüzə yaraşdırmayaq.

Öz toyunda, yalnız bircə dəfə, axırda bəy tərifi zamanı oynamalı olan, "ağır oturub, batman gəlməli olan" bəy üzlü Bəyoğlan, gül üzlü Gəlinlə birlikdə, bambılı kimi, az qala toyun başlanğıcından axırınacan atılıb-düşənlərin ortasındadır... Hər kəs toyda 1-2 dəfə gözəl oynamalıdır, çox oynamaq yüngüllükdür, kimsəyə, xüsusilə Bəyoğlana, Gəlinqıza heç yaraşmayandır.

Toy üçün ən yaxşı örnək Üzeyir bəyin ssenarisi əsasında çəkilmiş "O olmasın, bu olsun" filmində toy səhnəsidir.

Mən, öz toyumu borca da olsa qonaqlardan pul yığmadan elədim, çünki özümə söz vermişdim, əhd eləmişdim (ancaq iki qohumum məndən gizli özləriyçün pul yığmışdılar), qohumlar, el-oba sağ olsun, toyu (17.09.1983) Qalada, Lənkəran Şadlıq Sarayında yola verdilər. Toyu gözəl səsli, Cəlilabadlı xanəndə Yusif Məmmədov (əzizləri torpağı sanı yaşasın) aparırdı, sonradan xalq artisti olan, unudulmaz Qədir Rüstəmov pulsuzparasız, bircə sözümə Ağdamdan Lənkərana gəlmişdi (əzizləri torpağı sanı yaşasın), sinif yoldaşım, dostum Tofiq Ağayev deyir ki, toy iki xanəndənin yarışması ilə bəhsəbəhs, yaxşı keçdi. Bakıya gəlmək üçün yolpulunu da, üzümə üz bağlayıb, təzə tanışım Gülüdən (nikah pulunu) almalı oldum, cib xərcliyim də qalmamışdı. Toypulu borcumu qaytardım, ancaq yol pulunu 21 yığım (sentyabr) 1983-cü ildən bəri, hər ay bütün maaşımı da, indilərdə bütün pensiyamı da verməyimə baxmayaraq qaytara bilməmişəm, deyir, bəs eləmir, ödəmir... Qismət olsa, bir belə toyu da sonuncu olaraq, xanəndə Mustafanı - Bala Qədiri çağırmaqla eləməliyəm. İmkanı olan, ancaq mənim kimi borca girmədən, yol pulusuz qalmadan, beləcə, nəmərsiz, toypulu yığmadan toy eləsə yaxşıdır, bunun qürurlu ləzzəti ömürlükdür...

Toy-birinci saatında, əsas yeməklər veriləndə həzin, yüngül, aşağı tonlu musiqi ilə başlamalı, sonradan növbə ilə muğam, mahnı, saz havaları, rəqslər birbirini əvəzləməlidir. Çalğı heç vaxt qonaqları yoracaq qədər gur olmamalıdır, onlara zövq verəcək qədər tonda olmalıdır. Belədə toy əzab yerinə yox, istirahət yerinə çevrilər. Toyu Toybəyi idarə edir, onun sözü qətidir, hər kəs sifarişini ona verməli və onun göstərişlərinə ciddi əməl etməlidir. Toy hamının qaydanı gözləməklə şənləndiyi, əyləndiyi ciddi ictimai yerdir. Toyda kimsə xoşagəlməz hərəkətə yol verməməlidir. Toy bir qayda olaraq 5-6 saata yekunlaşmalıdır, istisnalar ola bilər, istəyən bir neçə gün də toy çaldıra bilər. Qonaqlar bir qayda olaraq toyun axırını gözləməlidirlər. Toyun axırında, qonaqlar getməmiş, Bəyoğlanın, Gəlinqızın el adətincə tərifi, onlara nəmər, xələt verilməsi, qonaqların alqışlarıyla yola salınmasıyla şənnik yekunlaşır. Toyun alverə, əzab yerinə çevrilməməsinin qarşısını yalnız sadalanan qaydada olmaq olar.

Bu yazı bütün toyxanaların girəcəyində asılmalıdır.

# Ürəklərdə məkan quran qəhrəman Famil

**Famil üçün Vətəni hər şeydən doğma və əziz idi. Bu ilahi sevgi onun qanına, canına ana südü ilə birgə hopmuşdu. Odur ki, 44 günlük haqq savaşımızda sinəsini Vətəninə sipər etməklə 30 il əsarətdə olan Qarabağımızın azadlığı naminə son nəfəsinə qədər qəhrəmanlıqla, mərdliklə yağıya qarşı döyüşdü. 22 yaşında şərəfli ölümü ilə bir tarix yazdı. Bununla da bütün nəsillərə nümunə olacaq bir həyat yolu keçdi.**






Famil Vüqar oğlu Ağaşov 1998-ci ildə Cəlilabad şəhərində anadan olub. Vətəni düşmən təcavüzündə olan Famil orta məktəbi bitirən ili ordu sıralarına yola düşüb. Cəbhə bölgəsində yurdunu, torpağını ləyaqətlə qorumaqla bərabər, həm də yağı ilə döyüşə hazırlaşıb. Saf vicdanı, qəlbində bəslədiyi doğma Azərbaycana ilahi sevgisi hər an onu Qarabağın azadlığı uğrunda vuruşa səsləyib. Və bu müqəddəs işdə şəhid olmağı belə özünə şərəf bilib. Məqamı gələndə yağının başını müharibə meydanında əzmək məqsədilə yaxşı əsgər olaraq üzərinə düşən tapşırıqları vaxtında, düzgün yerinə yetirib. Hərbinin sirlərinə yaxından bələd olmaq üçün bütün təlimlərdə fəal iştirak edib, ən ağır sınaqlardan uğurla keçib. Həmçinin idmançı olmağı da həmişə ona dayaq durub. Mərdliyi, cəsurluğu, ağıllı davranışı ilə komandirlərin sevimli əsgəri olan Famil Vətən qarşısında övladlıq borcunu şərəflə yerinə yetirdikdən sonra evinə qayıdıb. Qaldı ki, yağı tapdağında qalan Qarabağımızın taleyi onu rahat buraxmayıb, xəyalı gecə-gündüz döyüş bölgələrində dolaşıb. Bir ildən sonra yenidən orduya qayıdıb , kurs keçib və Xüsusi Təyinatlı hərbiçi olaraq xidmətə başlayıb.

Adəti üzrə Famil işinə ürəkdən bağlanıb. Olduqca mükəmməl bacarığa malik olan gənc verilən hər tapşırıqda ümidləri, etimadları layiqincə doğruldub. Həmişə də, bildirib ki, ulularımız Vətənin yaşaması naminə namus, qeyrət, torpaq uğrunda fədakarlıq göstəriblər. Qana susamış erməni cəlladlarından qisas almaq, onların qara niyyətini ürəyində qoymaq bizim üzərimizə düşür. Canında, qanında Vətən qeyrəti, yurd təəssübkeşliyi olan ölümdən qorxmadan düşmənə qarşı çıxar. Bir can borcluyuq, o da Vətənə qurban...

Bəli, 2020-ci il sentyabrın 27-də Qarabağın azadlığı uğrunda başlanan əks-hücum əməliyyatları zaman Famil odlu-alovlu səngərdə birincilər sırasında öz yerini alıb. Döyüş yolu ən qaynar nöqtələrdən keçən igid yağıya qan qusdurmaqla ad qoyub. Daha çox döyüşdüyü yer Füzuli rayonu olub. Müharibə meydanında ön sıralarda savaşıb, aldığı tapşırıqları cəsarətlə, ölümün gözünə dik baxa-baxa yerinə yetirib. Döyüşdən-döyüşə təcrübəsi artan Fərid daha sonra Cəbrayılda, Xocavənddə silahının hədəfinə tuş gələn çoxlu sayda erməni qəsbkarını məhv edib.

Neçə-neçə qanlı müharibədən zəfərlə çıxan qəhrəman Famil Ağaşov noyabrın 8-də, yəni qələbədən bir gün öncə yağıya qarşı son damla qanına qədər döyüşüb şəhidlik zirvəsinə ucalıb. Torpağı ölümü ilə Vətən edən Cəlilabadın igid şəhid oğlu dövlət tərəfindən 3-cü dərəcəli "Vətənə xidmətə görə" ordeni, "Vətən uğrunda", "Döyüşdə fərqlənməyə görə", Füzulinin, Xocavəndin azadlığı uğrunda medalları ilə təltif edilib.

Zəfər şəhidimiz Famil Ağaşovun qəlbində qoynunda dünyaya göz açdığı Vətəninə, torpağına sonsuz sevgi yuva qurmuşdu. Bu sevgi onun üçün bütün olanlardan ucada dururdu. Elə ona əbədi günəş ömür qazandıran da bu oldu.

**Zəfər ORUCOĞLU**



# Vətənə, xalqa həsr olunan şəhid ömrü



17aprel 1991-ci ildə Cəlilabad rayonu, Göytəpə qəsəbəsində anada olan Şəhriyar İsa oğlu Əsgərov İkinci Qarabağ müharibəsində Vətənin harayına birincilər sırasında gedib. Bu müqəddəs, şərəfli döyüşdə 30 il torpaqlarımızı əsarətdə saxlayan yağıya qan qusdurub. Şəhriyar silaha sarıldığı andan əzəli yurd yerimiz Qarabağın son qarışı azad olunacağı günədək düşmənlə döyüşəcəyinə and içib. Və müharibə meydanlarında 4 noyabra qədər şəxsi igidlik, şücaət göstərərək oddan-alovlardan keçməklə öz polad sinəsi ilə Vətəni alınmaz qalaya döndərib. Sonda şəhidlik zirvəsinə ucalıb ölümsüzlüyə qovuşan qəhrəman "Vətən uğrunda", "Xocavəndin azad olunmasına görə" medallarına layiq görülüb.

Ürəyi doğma Azərbaycana sevdalanan, onun hər qarışını özünə doğma bilən Şəhriyar İsa oğlu orta məktəbi bitirəndə yağı düşmənin ədalətsiz təcavüzü onu bir an belə rahat buraxmayıb. Amalı Vətən torpağını qorumaq, mübarizliklə düşmənə qalib gəlmək olan Şəhriyar ordu sıralarına gedib. Özü də arzuladığı kimi cəbhə bölgəsinə düşüb. Əsgəri borcunu şərəflə yerinə yetirməklə bərabər, həm də hərbin sirlərinə əzmlə yiyələnib. Axı qarşıdan onun yağıdan alacağı öcü vardı. Məhz buna görə də nəyin bahasına olursa-olsun Vətən torpaqların azadlığını istəyən Şəhriyar həyatını hərbiyə bağlayıb. Şəhriyar 9 il Azərbaycan Ordusunda ön xətdə çavuş rütbəsində xidmət edib. Bu müddət ərzində verilən bütün tapşırıqların qarşısından ləyaqətlə gəlib və əsl vətəndaş, mənəvi cəhətdən zəngin, vətənpərvər gənc olduğunu göstərib. Həmişə də əsgərlərinə bildirib ki, Vətəni canı bahasına qorumaq, hətta bu yolda şəhid olmaq bizim şərəfli borcumuzdur.

Şəhriyar işğal altında olan torpaqların azadlığı naminə yağıya qarşı hər vasitə ilə hazır durub. Lazımi hərbi təlimlərdə əla döyüşçü keyfiyyətləri nümayiş etməklə başqalarına da nümunə olub.

Bir qayda olaraq həmişə Vətən torpaqların işğalına barışmaz mövqe ortaya qoyan, qəlbi yağıdan qissa almaq istəyi ilə alışıb-yanan çavuş Şəhriyar Əsgərov İkinci Qarabağ müharibəsi başlanan kimi döyüşə atlanıb. Qatıldığı gərgin vuruşlarda rəşadət nümunəsi göstərərək yağının kabusuna dönüb. Yağıya endirdiyi saysız sarsıdıcı zərbələrlə hər gün şanlı qələbəmizi yaxınlaşdırıb. Füzulidə, Qubadlıda, Zəngilanda mərdliklə vuruşub, bir-birindən çətin əməliyyatlarda sözün əsl mənasında tarix yazıb. Hər döyüşdə cəsurluq, igidlik, mərdlik göstərən Vətənin qəhrəman oğlu Şəhriyar Xocavənd istiqamətində gedən ağır müharibə meydanında ayağından güllə yarası alıb. Çiyin-çiyinə vuruşan yoldaşları ona geri çəkilməyi deyiblər. Amma o, sona qədər vuruşacağını bildirib. Burada bir müddət davam edən atışmada yalnız Şəhriyar və Elnur adlı oğlan sağ qalıb. Mühasirədə olan çavuş oradan çıxmaq gümanını tam itirdikdən sonra əl qumbarası ilə özünü, həm də 4 nəfərdən çox erməni dığasını partladaraq əbədiyyət dünyasına qovuşub.

**Zəfər ORUCOĞLU**

# Vətənə sevdalanıb, adını tarixə yazan qəhrəman

**Gündüz Abdullayev haqq-savaşımızda qanı bahasına bizə qələbə sevinci yaşadan qəhrəman Vətən sevdalısıdır. Gündüz uşaqlıqdan canı qədər sevdiyi doğma Azərbaycanın daşına, torpağına vurğun böyümüşdü. Həyatı dərk edən gündən isə əsas arzusu erməni dığalardan qisas almaq olub. Hətta bu yolda şəhid olmağı belə özünə müqəddəs iş sayıb.**



Odur ki, Vətənin harayına birincilər sırasında getməklə son damla qanına qədər yağıya qarşı mərdliklə döyüşüb. Gündüz cismən aramızdan getsə də, əsir Qarabağımızın xilaskar əreni kimi tarixin yaddaşında iz qoyaraq milyonların ürəyində əbədi olaraq özünə məkan qurub. İllər keçəcək onun ömür yolu gələn nəsillər üçün də örnək olacaq.

El-obada əsl övlad məhəbbəti ilə sevilən, Vətənin yaşaması naminə canını əsirgəməyən Gündüz Çingiz oğlu 1999-cu ildə Biləsuvar rayonunun Zəhmətabad kəndində dünyaya göz açıb. O, orta məktəbi bitirib bir başa Vətənin keşiyinə yollanıb. Azərbaycanın Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarının Gəncə şəhərində yerləşən "N" saylı hərbi hissədə xidmətə başlayıb. Nümunəvi əsgər olaraq komandirlərin verdiyi tapşırıqlarını vicdanla yerinə yetirib. Qatıldığı təlimlərdə bir qayda olaraq mərdlik, fədakarlıq göstərib . Yağıya hədsiz nifrət hissi, ondan alacağı öcə görə həyatını hərbiyə bağlayıb. Həqiqi xidmətdən sonra, yəni 2020-ci ildən hərbi qulluqçusu kimi fəaliyyətini davam edib. Hə əməlinin əsasında da torpaq, Vətən sevgisi durub. Yağı tapdağında qalan Qarabağımızın azadlığı düşünməklə hərbin sirlərinə mükəmməl yiyələnib. Ürəyi Vətəni düşməndən qoruyaraq, ona layiqli oğul olmaq eşqi ilə döyünüb. Və əsgər yoldaşlarına, komandirlərinə məqamı gələn anda bu müqəddəs işdə gözünü qırpmadan canından keçməyə hazır olduğunu bildirib.

2020-ci il sentyabrın 27-də işğalçı Ermənistanın ölkəmizə qarşı başladığı növbəti hərbi təxribata cavab olaraq 44 günlük haqq savaşımızda Gündüz düşmənə ilk sarsıdıcı zərbəni vurub. Nəticədə Ermənistan ordusu böyük itkilərlə üzləşib. Erməni dığaların kabusuna çevrilən igid əsgər daha sonra Murovdağ istiqamətində gedən döyüşlərdə savaşıb. Ağır, qeyri-bərabər müharibə meydanında Gündüz qabaqda olmaqla adəti üzrə yüksək şəxsi rəşadət və şücaət nümayiş edib. Özü şəhid olsa da, Qarabağımızın sinəsinə daha bir qələbə bayrağımız saçılıb. Bu eləcə Vətənimizin müdafiəsi uğrunda canından keçərək şəhidlik zirvəsinə ucalan Gündüzün qısa ömrünə şərəf, qürur qatıb. Prezident İlham Əliyevin sərəncamları əsasında isə şəhid Gündüz Abdullayev göstərdiyi igidliyə, fədakarlığa və vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün "Vətən uğrunda" və "Kəlbəcərin azad olunmasına görə" medallarına layiq görülüb.

**Zəfər ORUCOĞLU,
Azərbaycan Jurnalistlər
Birliyinin üzvü**

# Hər addımımızı izləyirlər...

## Texnologiyanın görünməyən tərəfi: rahatlıqmı, nəzarətmi?






**İngilis yazıçısı Corc Oruellin "1984" adlı romanında belə bir məşhur ifadə yer alır: "Big Brother is watching you" ("Böyük Qardaş səni izləyir" - red.). Romanda təsvir olunan "Böyük Qardaş" əslində konkret bir şəxsi yox, bir siyasi partiyanın simvolunu və onun bütün vətəndaşlar üzərində qurduğu daimi nəzarəti xarakterizə edir. Oruell əsərdə göstərir ki, psixoloji nəzarət üsulu olan "Böyük Qardaş"ın portreti hər yerə asılır ki, insanların gündəlik həyatında daim qarşılarına çıxsın və izlənildikləri hissini aşılasın. Çünki bu zaman insan özü-özünü senzura edir və nə vaxtsa dediyi fikirlərin özünə qarşı istifadə oluna biləcəyi qorxusu ilə bir ömür sürür...**

1949-cu ildə həmin dövrün reallıqlarına uyğun şəkildə yazılmış bu roman müasir texnologiyaların inkişafı ilə bu distopik təsvirləri gerçəyə çevirməyi bacarıb. Bu gün real kimliklə sosial şəbəkələrə qoşulma, arxa planda tətbiqlərin izlənməsi, üz tanıma texnologiyaları, kameralarla müşahidə və nəzarət, eləcə də onlayn ödəniş metodları vasitəsilə dövlətin vətəndaşlar üzərində daimi maliyyə nəzarəti bunun əyani sübutudur. Texnoloji inqilab nəticəsində bütün dünyada müzakirə mövzusuna çevrilən bu məsələlər artıq ölkəmizə də gəlib çatıb.

Söhbət Bakı Metropolitenində yeni üz tanıma ilə ödəniş üsullarının sınaqdan keçirilməyə başlanması ilə bağlı yayılan xəbərlərdən gedir. Qurumun və quruma yaxınlığı ilə bilinən mətbu orqanlarda gedən məlumatlara görə, bu addım sərnişinlərin rahatlığını artırmaq, vaxta qənaət və insanların sürətli keçidini təmin etmək üçündür.

Şübhəsiz ki, qeyd olunanlar mahiyyət etibarilə həqiqəti əks etdirir və texnologiyanın xidmət sahələrinə tətbiqi bu gün bütün dünyada "lüks" hesab olunur. Çin başda olmaqla Avropa və dünyanın əsas inkişaf etmiş ölkələrində bu cür sistemlər mövcuddur. Ammag

Təəssüf ki, xaricdən götürülüb ölkəmizə "copy-paste" edilən bu cür texnoloji layihələr əksər hallarda özünü doğrultmur və ya özü ilə bərabərində əlavə problemlər, çətinliklər, diskomfortlar gətirir. "Rahatlıq", "vaxta qənaət", "sürətli keçid" kimi qulağa xoş gələn bu fikirləri "aysberq" olaraq beynimizdə canlandırsaq, o zaman həm də bilməliyik ki, həmin bu "aysberq"in bir də görünməyən və lehimizə olmayan tərəfləri var.

Bunlardan ilki - yuxarıda da qeyd olunduğu kimi, insanların şəxsi həyatına qeyri-etik şəkildə müdaxilə, mümkün izlənmə halları və özündə mühüm şəxsi məlumatları ehtiva edən toplanmış dataların təhlükəsizliyi ilə; ikincisi isə kifayət qədər bahalı olan və tez-tez texniki dəstək tələb edən bu texnologiyanın tətbiqindən sonra metroda gediş haqqının artırılma ehtimalı ilə bağlıdır.

### Uz tanıma texnologiyası nədir və nə kimi riskləri var?

Əvvəlcə qeyd edək ki, biometrik - üz tanıma texnologiyaları insanın üz cizgilərini təhlil edərək şəxsiyyətini təsdiq edən bir üsuldur. Bu texnologiya unikal üz xüsusiyyətlərini müəyyən etmək və bu məlumatları



verilənlər bazasında saxlanılan digər üzlərlə müqayisə etmək üçün mürəkkəb alqoritmlərdən və dərin öyrənmə üsullarından istifadə edir. Üz tanıma sistemləri adətən iki mərhələdə işləyir - üz aşkarlama və üz uyğunlaşdırma.

Üz aşkarlanması mərhələsində sistem şəkil və ya video axınındakı üzləri aşkarlayır. Üz uyğunluğu mərhələsində isə aşkar edilmiş üzün xüsusiyyətləri çıxarılır və əvvəllər qeydə alınmış üz məlumatları ilə müqayisə edilir.

Üz tanıma texnologiyası özündə məlumatların məxfiliyi və şəxsi məxfiliyin pozulması riskini ehtiva edir. Üz tanıma sistemləri böyük miqdarda şəxsi məlumatları toplayır və emal edir. Bu məlumatların təhlükəsizliyi təmin olunmazsa, zərərli şəxslərin əlinə keçə və kibercinayətlərə səbəb ola bilər.

Bundan əlavə, üzün tanınması sistemlərinin geniş tətbiqi fərdlərin daimi monitorinqi və izlənməsi anlamına gəlir ki, bu da şəxsi azadlıqların məhdudlaşdırılması kimi qəbul edilə bilər. Ekspertlər hesab edirlər ki, bu cür sistemlər hökumətə vətəndaşların hərəkət marşrutlarını mərkəzləşdirilmiş bazada toplamaqla, onların gündəlik vərdişlərini, hara getdiklərini izləmək kimi imkanlar verir.

Qeyd edək ki, hazırda Azərbaycanda üz tanıma ilə ödəniş sistemi məhdud sahələrdə tətbiq olunur. Məsələn, SİMA Pay sistemi "Face ID" texnologiyasını dəstəkləyir, bankların və bəzi texnologiya şirkətlərinin də pilot layihələri mövcuddur.

İT mütəxəssisi: "Şəxsin hansı tarixdə, saatda, ictimai nəqliyyatda olduğu kimi detalları araşdırmaq məqsədilə istifadə oluna bilər"

Bu mövzu ilə bağlı İnformasiya Texnologiyaları (İT) üzrə mütəxəssis Fərhad Mirəliyev bildirib ki, hazırda dünyada tətbiq olunan ödəmə üsullarından biri də biometrik - üz tanıma ola bilər.

Ekspert qeyd edir ki, bizdə vahid üz tanıma ilə ödəniş sistemi hələ mövcud deyil. Ödənişlər əsasən kart və bank servisləri vasitəsilə həyata keçirilir və bununla da rəqəmsal qeydlər aparılır: "Rəqəmsal qeydlərin aparılması bu gün də mümkündür. Biometrik ödənişlər - üz tanıma və digər biometriya növləri ödənişin sadəcə bir üsuludur. Bu gün "m10" və bank tətbiqi ilə ictimai nəqliyyatda ödəniş etmək mümkündür ki, bu zaman da ödənişlər bank serverlərində qeydə alınır. Biometrik ödəniş zamanı da məlumatların saxlanılması və emalı prinsipi eyni qalır. Yəni, biometrik ölçülər vasitəsilə ödəniş edildikdə həmin məlumatlar da mərkəzi sistemdə qeydə alınacaq. Bu, sadəcə alternativ ödəniş üsuludur".

F. Mirəliyev məlumatların sonradan istifadəsinə də toxunub: "Mən düşünürəm ki, adi bir vətəndaşın bu məlumatları ciddi bir maraq kəsb etmir. Yalnız hansısa məhkəmə predmeti və ya cinayət işi olduqda, həmin şəxsin hansı tarixdə, saatda, ictimai nəqliyyatda olduğu kimi detalları araşdırmaq məqsədilə istifadə oluna bilər. Amma gündəlik həyatda kimin hara getməsi barədə məsələlər o qədər də əhəmiyyətli deyil".

Mütəxəssis məlumatların təhlükəsizliyi məsələsinə də münasibət bildirib: "Burada artıq tələblər xüsusi xidmət orqanları tərəfindən müəyyən olunur. Metropoliten, eləcə də ictimai nəqliyyat qurumları özbaşına fəaliyyət göstərmir. Əgər burada vətəndaşların məlumatları saxlanılırsa, deməli, dövlətin müvafiq qurumları da bu məsələdə iştirak edir. Onların bu sahə ilə bağlı dövlətin tələblərini, fərdi məlumatların qorunması, saxlanılması və emalı ilə bağlı qanunvericilik və prosedurların şərtlərini mütləq şəkildə təmin etmələri vacibdir".

Ekspertin sözlərinə görə, bu istiqamətdə dövlət strukturları ildə bir neçə dəfə monitorinqlər keçirir: "Xüsusi xidmət qurumları mövcud infrastrukturun tələblərə uyğun olub-olmadığını yoxlayır. Əgər uyğunsuzluq varsa, onun aradan qaldırılması üçün tədbirlər görülür. Məqsəd odur ki, vətəndaşların fərdi məlumatlarının qorunması və saxlanması təmin edilsin".

Bu məqamda başqa bir məsələyə də toxunmaq yerinə düşər. Bu gün bütün dünyada məxfilik hüququ təməl insan hüquqlarından hesab olunur və BMT-nin İnsan Hüquqları Bəyannaməsinin 12-ci maddəsində də açıq şəkildə bildirilir ki, şəxsi həyatımız qorunmalıdır. Belə olan halda üz tanıma texnologiyalarının tətbiqi xüsusi diqqət tələb edir. Yəni, hər hansı yeni sistemin tətbiqi zamanı vətəndaşların məxfilik hüququ mütləq qaydada qorunmalı, məlumatların istifadəsi, saxlanması və emalı qanunvericiliyə uyğun həyata keçirilməlidir.

"Ödəniş məsafəyə görə və sutkanın saatlarına uyğun olaraq müəyyən edilə bilər"

İkinci məqama - metroda qiymət artımı ilə bağlı mümkün ehtimala gəlincə, bir müddətdir mətbu orqanlarda metro və avtobusda gediş haqqı məbləğinin artırılacağı ilə bağlı ardıcıl xəbərlər tirajlanır. Bu xəbərlərə görə, yaxın vaxtlarda metroda yeni gediş haqqı üsulu tətbiq olunacaq. Yəni, insanlar getdikləri məsafəyə uyğun şəkildə ödəniş edəcəklər. Həmçinin aylıq və illik biletlərin satışa çıxarılacağı, həssas kateqoriyada olan şəxslər üçün müəyyən güzəştlərin tətbiq olunacağı da müzakirə mövzularından biridir.

Qiymət məsələsinə gəlincə, burada gediş haqqının 50 qəpikdən 1 manata qədər artırılacağı deyilir.

Nəqliyyat eksperti Eldəniz Cəfərov bildirib ki, üz tanıma metodu ilə ödəniş sistemi hələ layihə çərçivəsindədir və belə bir qərar rəsmi olaraq qəbul edilməyib: "Sadəcə yaxın gələcəkdə bu sistemin tətbiqi planlaşdırılır. Dəmir yolunda artıq uğurla sınaqdan keçirilib. Dünyanın müxtəlif ölkələrində üz tanıma ilə ödəniş sistemləri işləyir - metroda, ictimai nəqliyyatda, qatarlarda tətbiq olunur".

Ekspert ödəniş mexanizminə də toxunub: "Qiymətlərin məsafəyə görə diferensiallaşdırılacağı deyilir. Ödəniş məsafəyə görə və sutkanın saatlarına uyğun olaraq müəyyən edilə bilər. Həssas kateqoriyadan olan sərnişinlər üçün də güzəştlər nəzərdə tutula bilər, lakin bu məsələlər hələ aktuallıq daşımır. Əgər gediş haqqının diferensiallaşdırılması həyata keçirilərsə, o zaman bu məsələyə də baxıla bilər".

Xatırladaq ki, son illər Bakı Metropolitenində gediş haqqının artımı diqqət çəkən məsələlərdən biridir. 2018-ci ildə metroda bir gedişin qiyməti 30 qəpik müəyyən edilmişdi. 2023-cü ilə qədər bu tarif 40 qəpiyə yüksəldi ki, bu da təxminən 33,3% artım deməkdir. Bu dövr ərzində illik orta artım təxminən 6,7% təşkil etmişdir.

Sonrakı iki ildə, yəni 2023-2025-ci illərdə metro gediş haqqı 50 qəpiyə çatdırılıb. Bu dövrdə artım tempi daha sürətlidir - ümumən 25% artım qeydə alınıb. İllik orta artım 12,5%-ə bərabər olub ki, bu da əvvəlki dövrə nisbətən təxminən iki dəfə yüksəkdir.

Ümumilikdə, 2018-2025-ci illər ərzində metroda gediş haqqı 30 qəpikdən 50 qəpiyə yüksələrək 66,7% artım göstərmişdir. Statistik təhlil də göstərir ki, artım tempi xüsusilə son iki ildə sürətlənib.

**Elvin Bəyməmmədli**